№05 (1053) 8-13 fevral 2019-cu il

www.iqtisadiyyat.com

İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

Prezident İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxıda olub

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zəlzələnin baş verdiyi Şamaxıda olub.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov dövlətimizin başçısına fevralın 5-də və 6-da təbii fəlakətin törətdiyi fəsadlar barədə yerində məlumat veriblər. Prezident İlham Əliyev zəlzələdən zərər çəkən tikililərə baxıb, sakinlərlə söhbət edib.

Xocalı faciəsi unudulmayacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 05 fevral 2019-cu il tarixində Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında Sərəncam imzalamışdır.

Sərəncamda deyilir: "Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Bu qanlı faciədən 27 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücuma keçmiş, bütün beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarını pozaraq oraya zirehli texnika yeritmiş, şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Ermənistan silahlı qüvvələrinin mühasirəsində qalmış şəhər sakinlərindən 613-ü, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı soyqırımını törətməklə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirmiş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etmişdir. Bunun nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır. Dünya tarixinin ən qanlı faciələrindən biri sayılan Xocalı soyqırımı XX əsrdə erməni şovinizminin mahiyyətini aşkara çıxaran təkzibolunmaz tarixi gerçəklikdir.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının, Avropa Şurası Parlament Assambleyasının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bu günədək beynəlxalq hüququn normaları və prinsipləri, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapmamışdır.

"Xocalıya ədalət!" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, bəşəriyyət əleyhinə bu cür ağır cinayətə beynəlxalq miqyasda hələ hüquqi qiymət verilməmişdir.

2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu torpaqlarımızın bir qismini işğaldan azad etmiş, uğurlu Naxçıvan əməliyyatı ilə 11 min hektar ərazi nəzarətimizə keçmişdir. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz vardır. Mövcud status-kvo qəbuledilməzdir və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılması tələbi daim gündəmdədir. Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır".

Sərəncamda qeyd olunur ki, Respublika Prezidenti Xocalı faciəsinin iyirmi yeddinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsinin təmin edilməsini tapşırmışdır.

Yaddaşın təzələnməsi

Yaddaşlarını itirənlər elə bilirlər ki, xalq da yaddaşsızdır

Əmək fəaliyyətimə 1969-cu ildə fəhləlikdən başlamışam. Əmək kitabçamdakı ilk qeyd Ağdam Rayon Kommunal Təsərrüfatı Şöbəsinə məxsus «bordür" sexində «beton ələkçisi" işləməyimlə başlayır.

HALAL ÇÖRƏK VƏ ŞƏRƏFSİZ QAZANC

1974-cü ildə Azərbaycan Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra 8 ay iş tapmayanda onun 6 ayını «Azərbaycan" nəşriyyatının qəzet-jurnal sexində maşınlara çap məhsulları yükləyən fəhlə kimi işləmişəm.

Bu gün də nə vaxtsa fəhlə işləməyimlə fəxr edirəm!

İlk dəfə qabarlı əlimlə maaş cədvəlinə qol çəkib əməkhaqqını alanda da qürur duymuşam!

Çünki fəhlənin qazancı halal olur!

Çünki əl qabarı, alın təri ilə qazanılan pul təmiz pul sayılır!

Ümumiyyətlə, hansı sahədə çalışmağından asılı olmayaraq zəhmətlə qazandığın əməkhaqqı təmiz və halaldır.

Vay o gündən ki, pulun oğurluqdan, onun-bunun cibinə girməkdən çıxa!

Vay o gündən ki, pulu dələduzluqla, adam aldatmaqla, haramzadalıqla qazanasan!

Vay o gündən ki, dolanışıq mənbəyin, çörəyin, ailənin saxlanma xərci vətənə xəyanətdən əldə etdiyin vəsaitdən ola!

Bundan böyük rəzillik tanımıram!

Bundan böyük şərəfsizlik ola bilməz!

Vətənə xəyanətdən qazanılan qrant gec-tez irin-çirkə dönərək onu yeyənlərin burnundan gələcəkdir!

Heç zaman xəyanətkar cəzasız qalmır!

Çünki Allah da belələrinə qənim olur!

XALQIN AĞIR GÜNÜNDƏN DİVİDEND GÖTÜRƏNLƏR

1941-1945-ci illər müharibəsini görməmişəm.

Amma haqqında çox eşitmiş, oxumuş, müxtəlif filmlərə baxmışam.

O illər hamı bir məqsəd uğrunda çalışır, birlikdə işləyib mübarizə aparırdı.

Sovet hökumətinin qılıncının dalı və qabağının kəsən vaxtı başqa cür mümkün də deyildi!

Elə cəza mexanizmi vardı ki, heç kəs ondan yaxa qurtara bilməzdi!

Amma xalqımızın ən ağır günü sayılan 20 Yanvar hadisələri yadımdadır!

Şuşanın işğalını heç zaman unutmaram!

Xocalı soyqırımının səhərisi günü - 27 fevral 1992-ci ildə mühasirədən çıxaraq Ağdama pənah gətirənlərin müsibət və görkəmini ömrüm boyu yaddan çıxarmaram!

Qorbaçovun "yenidənqurma"sı dövründə dövlətin və xüsusi xidmət orqanlarının razılığı ilə müttəfiq respublikalarda "xalq cəbhəsi" adı ilə qurumlar yaradılırdı. Ora mahiyyətdən xəbərsiz qoşulanların böyük əksəriyyəti Vətənini, xalqını sevən, Dağlıq Qarabağa yönələn çirkin və məkrli niyyətlərlə barışmayan gənclər, tələbələr, ziyalılar, fəhlələr idi. Hamısı qeyrətli, yüksək mənəviyyata malik insanlardı.

Xüsusi tapşırıq yerinə yetirənlər də vardı...

Mərdlərin çoxu sinəsini güllə qabağına verdi, şəhid getdi, sonadək inam və şücaətlə mübarizə aparanlar da oldu...

Amma bu mübarizədən dividend götürənlər, müxtəlif üsullarla vəzifə kürsüsü ələ keçirənlər, hərəkatın təmiz və müqəddəs adına ləkə gətirənlər də tapıldı. Sonradan "lider"lərə çevrilənlər 20 Yanvarda xalqı aldatdılar:

** "barrikadalar qursaq, sovet ordusu şəhərə girə bilməz", - dedilər;*

** cavanlara armatur parçaları paylayaraq tankların qabağına göndərdilər;*

** "Şmidt zavodunda avtomat hazırlanır, indi gətirib paylayacağıq, mövqeyinizdən tərpənməyin", - söylədilər.*

Özlərinin bircə nəfərinin burnu qanamadı!

Qaçıb hərəsi bir yerdə gizləndi, canını vəzifə almaq üçün qorudu!

Sonra həmin vəzifələri aldılar da!

1992-ci ilin martında Laçını işğal təhlükəsi gözləyən zaman oranı müdafiə edən əsgərləri və zirehli texnikanı Bakıya çağıraraq parlamenti zor gücünə ələ keçirdilər, deputatları bir gecə səhərə kimi iclas zalında girov saxladılar...

Şuşa işğal olunanda müdafiə və daxili işlər nazirləri AXC-nin kadrları idi.

Nə Rəhim Qazıyev təpəsinə güllə çaxdı, nə də general Tahir Əliyev cəzalandırıldı.

Kəlbəcəri işğal təhlükəsi gözləyəndə daxili işlər naziri İsgəndər Həmidov heç bir təhlükə gözlənilmədiyini bəyan edərək adamları öz vətəninə "kavaf yeməyə" çağırdı...

Həmin İsgəndər Həmidov ki, türmədəkilərin əlinə avtomat verib onlardan "qoşun" düzəldərək torpaqların müdafiəsinə göndərmişdi. Onların da bir qismi həmin avtomatlarla Bakıda soyğunçuluğa və reketçiliyə qurşanmışdı.

Həmin İsgəndər Həmidov ki, özünü demokrat adlandırsa da, qəzet redaktorunu maşının yük yerinə basaraq həbsxanaya aparmışdı.

Həmin İsgəndər Həmidov ki, redaksiyaya gələrək onu tənqid edən "Zerkalo" qəzetinin müxbirinə tənqidi yazının verildiyi qəzet nömrəsini zorla yedizdirmişdi.

Görünür, hələ də köhnə havası başındadır!

Tribuna üçün bərk darıxıb!

"Sovet tankının qabağında duranlar rüşvətin qabağında dayana bilməlidir" - bu sözlər də İsgəndər Həmidova məxsusdur.

Xalqın ağır günündən istifadə edərək onun adı ilə vəzifə qazananlar xalqı yaman günə qoydular!

OLANLARIN HEÇ BİRİNİ UNUTMAMIŞIQ

Meydan qəhrəmanları"nın - AXC-nin iqtidar dövrü çox maraqlı və qəribə keçdi.

Vəzifələri yaxşı bölə bilmədiklərindən "xalq hərəkatı" adlandırdıqları qurumu parçalamağa, hərə özünə yeni bir partiya yaratmağa başladı.

Müsavat güclü çıxdığından AXC-nin qalan hissəsi ilə birlikdə iqtidara yiyələndi.

Milli İstiqlal Partiyası isə "ana müxalifət"ə çevrildi.

Təcrübəsiz, səriştəsiz, görməmiş adamların eyforiya dövrü başladı.

Tamahları onları idarə etsə də, onlar dövləti idarə edə bilmirdilər!

** Bir yanda xaos və anarxiya...*

** Bir yanda özbaşınalıq və qanunsuzluq...*

** Bir yanda artan cinayətkarlıq...*

** Bir yanda işsizlik və yoxsulluq...*

** Bir yanda ölkə ərazisinin kəndbəkənd işğalı...*

* Bir yanda da ümidsizlik və sabaha inamın itməsi.

Nə dalbadal elan edilən fövqəladə vəziyyətlər kara gəlirdi...

...Nə də küçələrdən tutularaq əlinə avtomat verilən və birbaşa döyüş bölgəsinə göndərilən "hərbi birləşmələr" torpağı qorumağa qabil idi.

Ölkə parçalanma, yenidən xanlıqlara bölünmə həddinə gəlmişdi.

Vəzifə sərməstliyinin acı etiraf mərhələsi çatmışdı.

Ulu öndər Heydər Əliyevə yalvar-yaxar etməyə başladılar!

Dalınca neçə dəfə Naxçıvana təyyarə göndərdilər!

Amma qısa müddətdə gördükləri vəzifənin dadı damaqlarında qalmışdı!

Ulu öndər xalqın və dövlətin düşdüyü vəziyyətə biganə qala bilməyərək geriyə dönəndə isə vəzifələrini "dondurараq" gözləmə mövqeyinə keçdilər.

(ardı 2-ci səhifədə)

(əvvəli 1-ci səhifədə)

Gözlədilər ki, ulu öndər Heydər Əliyev:
* müharibədə atəşkəsə nail olsun;
* qeyri-qanuni silahlı birləşmələri ləğv etsin;
* ölkədə möhkəm və dönməz sabitlik yaratsın;
* müstəqilliyi əbədiliyə və dönməzliyə çevirsin;
* Azərbaycanı böhran və fəlakətdən xilas etsin;
* neft müqavilələri bağlayaraq insanları ehtiyac və yoxsulluqdan qurtarsın;
* büdcəyə bol-bol vəsait gəlsin.

Bütün bunlardan sonra yenidən geriyə qayıdaraq talançılığa başlasınlar!

Amma iqtidardan getməmişdən qabaq - 25 may 1993-cü ildə Prezident Aparatında geniş müşavirə keçirərək vəzifədə olduqları qısa dövr ərzində gördükləri işlərə öz qiymətlərini verdilər!

Əslində bu, həm də AXC-Müsavat cütlüyünün səriştəsiz idarə etməsindən boğaza yığılan xalqın onlara verdiyi qiymət idi.

Amma özləri öz dillərindən səsləndirirdilər.

ÖZÜNÜİFŞA VƏ MÜSTƏQİLLİK AMALLARINA XƏYANƏTİN ACI ETİRAFLARI

Bu gün dondurduqları vəzifənin buzunun açıldığını güman edərək, yenidən geriyə qayıtmaq eşqinə düşənlərin, onları tanımayaraq, əvvəlki əməllərindən xəbərsiz olanları aldadanların, özlərini "vətənpərvər", "demokrat", "xalqın qeydinə qalan" və s. kimi göstərmək istəyənlərin 1993-cü ilin may müşavirəsində söylədiklərindən bəzi sitatları xəbərsizlərin, meydan qəhrəmanları və tribuna hərislərini tanımayaraq onlara inanmaq istəyənlərin diqqətinə çatdırırıq!

Əvvəlcə özünü sonuncu mitinqin «qəhrəmanı" kimi aparmağa çalışan ƏLİ KƏRİMLİDƏN başlayaq. O Əli Kərimlidən ki, heç yerdə işləməsə də, qrant hesabına nəinki yağ-bal içində yaşayır, hətta özünə cangüdənlər, qulluqçular da saxlaya bilir.

Xatırlayaq ki, Əli Kərimli AXC-Müsavat iqtidarı dövründə baş verənlər üçün yüksək məsuliyyət daşıyan dövlət katibi postunu tuturdu.

Beləliklə, onun çıxışından müxtəlif parçaları sitat gətiririk.

Dövlət katibi Əli KƏRİMLİ:

"Milli Orduda nəzarətsizliklər nəticəsində heç bir intizamın olmaması, silahın, şəxsi heyətin, texnikanın uçotunun olmaması ona şərait yaratmışdı ki, Azərbaycan Respublikasının Milli Ordusunda külli miqdarda dövlət əmlakının mənimsənilməsinə şərait yaradılmış, külli miqdarda cinayətlər törədilmiş və bir sıra hərbi cinayətlər artıq cəzasızlıqdan adi hala çevrilmiş, ümumiyyətlə, cinayət kateqoriyası sırasından çıxmışdır. Məsələn, fərarilik o qədər geniş yayılmışdı ki, bu tipli cinayətlərə görə cəza verilməsi artıq mümkün olmur".

***

"Xalqın böyük narazılığına səbəb olan bir qüsurumuz da iqtisadi sahədə cinayətkarlığın baş alıb getməsidir. İqtisadi sahədə cinayətkarlıq elə bir vüsət alıb ki, dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yollarla xaricə satılması, həmin vəsaitin xaricdə saxlanılması və bir sözlə, dövlət əmlakının talan edilməsi adicə hala çevrilib".

***

"İqtisadiyyatın bütün sahələrində cinayətkarlıq iri miqyas alıb və hətta ayrı-ayrı cinayət faktları göstərir ki, hüquq mühafizə orqanlarının da müəyyən vəzifəli şəxsləri daxil olmaqla, artıq dövlət orqanlarının daxilində müəyyən cinayətkar təbəqələr formalaşmaqdadır".

***

"Bu gün Azərbaycanın maddi sərvətləri qaçaqmalçılıq yolu ilə talan olunur. Respublikanın on minlərlə iribuynuzlu mal-qarası, minlərlə texnikası və digər maddi sərvətləri sərhəddən qaçaqmalçılıq yolu ilə keçirilir. Bu, respublikanın iqtisadiyyatına sarsıdıcı zərbə vurur".

***

"Respublikada bütövlükdə nəinki qanunçuluq, hətta icra intizamı xeyli dərəcədə aşağıdır. Prezident fərman və sərəncamlarının icrası qənaətbəxş səviyyədə deyil. Bəzən elə ab-hava yaradırıq ki, qanunsuzluq, özbaşınalıq, hakimiyyətsizlik demokratiya ilə eyniləşdirilir. Çox təəssüf ki, hətta fərmanlar icra olunduğu təqdirdə belə istənilən nəticəni vermir. Qarşıya qoyulan nəticəyə nail olunmur".

***

Ən nəhayət, özünə və ətrafına verdiyi ən obyektiv qiymət:

"Hələ biz özümüz Prezident Aparatında bu işi lazımi səviyyədə qura bilməmişik. Fövqəladə vəziyyəti elan etməklə ölkəmizdə sabitliyin bərqərar olunmasına, ordu quruculuğunun başa çatdırılmasına, qanunsuz silahlı dəstələrin, şəxslərin tərksilah olunmasına, bir sözlə, qanunçuluğun səviyyəsinin yüksəlməsinə şərait yaratmalı idik. Ancaq... Fövqəladə vəziyyətdə bizim görə bildiklərimiz görməli olduqlarımızdan xeyli azdır. Və biz, əslində, heç də bütün imkanlarımızdan istifadə edə bilmədik".

İxtiyar ŞİRİNOV AXC-Müsavat iqtidarı dövründə Baş prokuror vəzifəsini daşıyırdı. "Gəncə qiyamı" zamanı prezident Əbülfəz Elçibəyin həbsi barədə order verməsi ilə yadda qalıb.

Baş prokuror İxtiyar ŞİRİNOV:

"Respublikada mafioz qüvvələr get-gedə güclənməkdə, baş qaldırmaqdadır. Belə qüvvələr müxtəlif fırıldaqla dövlət əmlakını çapıb talayır, iqtisadiyyata böyük zərbə vururlar. Bakı, Gəncə, Sumqayıt və digər şəhərlərdə böyük mafiya fəaliyyət göstərir".

***

"1991-ci illə müqayisədə indi qeydə alınan cinayətlərin sayı böyük sürətlə - 43,8 faiz artaraq 22450 hadisəyə çatmış, ağır cinayətlərin sayı isə iki dəfədən çox artmış və 6009 belə cinayət hadisəsi qeydə alınmışdır".

***

"Cinayət işlərinin qeydiyyatdan gizlədilməsi halları müəyyən edilmişdir. Qanunsuzluqların nəticəsidir ki, banditizmin 98, qəsdən adamöldürmənin 55,2, zorlamanın 52, dövlət əmlakının mənimsənilməsinin 61,8, soyğunçuluğun 79,7, quldurluğun 81,4 faizi açılmamış qalmışdır. Bu, prokuror nəzarətinin zəif olması deməkdir".

***

İxtiyar Şirinovun öz komandalarının yekun işinə verdiyi qiymət isə belə oldu:

"Açıq danışmaq lazımdır. Respublikamızda rüşvətxorluğun belə tüğyan etməsi, bu cür baş alıb getməsi hüquq mühafizə orqanlarının özünün həmin hallara şərait yaratması nəticəsində baş vermişdi. Dövlət aparatında, hüquq mühafizə orqanları arasında rüşvətxorlar həddindən artıq çoxdur. Bunu açıq qeyd etmək lazımdır və biz hələ də belələrinə qarşı mübarizə aparmaqda zəiflik göstəririk. Nə qədər ki dövlət aparatında sağlam əhvali-ruhiyyə yaratmamışıq, nə qədər ki dövlət aparatında, o cümlədən hüquq mühafizə orqanlarında rüşvətxorları ifşa edib kənarlaşdırmamışıq, belə şərait davam edəcəkdir. Dövlət aparatı özü iflic vəziyyətindədir, daha doğrusu, özü rüşvətxorluqla məşğul olur. Ona görə də rüşvətxorluqla məşğul olan dövlət aparatı rüşvətxorluqla mübarizə apara bilməz və biz bu məsələnin həllini dövlətdən başlamalıyıq".

Daxili işlər naziri
Abdulla ABDULLAYEV:

"Cinayətkar əlaqələrin zorakılığı və qəddarlığı güclənir, silahlı formalarda cinayətkar terrorizm yayılır, iqtisadi sahələrin kriminallaşması davam edir, mütəşəkkil cinayətkarlığın və korrupsiyanın kriminal-siyasi təhlükəsi böyüyür... Bölgələrdə mənəm-mənəmlik, hegemonluq iddiası hələ də davam edir. Məsələləri sivilizasiyalı həll və qanunun aliliyini təmin etmək əvəzinə vəzifəli şəxslər şəhərdə və ya rayonda birinci olmaq uğrunda didişirlər. Belə hallar iqtidarı, hökuməti nüfuzdan, hörmətdən salır, xalqın mövcud hakimiyyətə olan inamını sarsıdır. Məncə, artıq bölüşdürülməli heç nə yoxdur".

***

"Çox təəssüf ki, biz hələ də idarəçiliyə, boşboğazlığa son qoymamışıq. Hər kəs öz yerini bilməlidir".

***

"Etiraf etməliyik ki, peşəkarlığın səviyyəsi dəhşətli dərəcədə enmişdir. Gedən təcrübəli əməliyyatçılar və müstəntiqlərin layiqli əvəzlərini hazırlaya bilmirik".

Ədliyyə naziri İlyas İSMAYILOV:

"Cinayətkarlar öz içimizdədir. Ona görə də onun dağıdıcı qüvvəsi çox böyükdür. Ümumiyyətlə isə, ölkədəki cinayətkarlıqla bağlı mübarizədə biz heç nə edə bilməmişik. Cinayətkarlıq bizim fəaliyyətimizi üstələyir, bu, çox acı gerçəklikdir".

***

"Məhkəməyə verilən 14407 cinayətkardan cəmi 7878 nəfəri cəza alıb. Bəli, biz işləyə bilmirik. Hüquq mühafizə orqanlarında əlaqələndirilmə yox dərəcəsindədir".

***

"Hakimiyyətimiz dövründə rüşvətxorluq kommunistlərin dövründəkindən dəfələrlə çoxalıb. Bu, faktdır. Vəzifəli şəxslər içərisində təmizləmə aparılmalıdır".

***

"İqtisadi sahədə böyük dağıntılar gedir. Guya ki, apardığımız "mübarizə" ilə əslində cinayətkarları cinayətlərə daha da həvəsləndiririk. Məhkəmələr, doğrudan da, işləmir. Bu sistemdə yoxlama aparmışıq, adamı dəhşət bürüyür. Adi fakt: məhkəmə prosesi olmadan hökm çıxardırlar. Bu, ən böyük biabırçılıqdır".

***

İlyas İsmayılovun sonuncu qiymətləndirməsi isə belə oldu:

"ZAQS-lar 33 yaşlı azərbaycanlı qadınlar ilə 51 yaşlı rus kişisinin, 55 yaşlı azərbaycanlı kişisi ilə 80 yaşlı rus qadınının kəbinini kəsir. Bunu edənlər natəmiz məqsədlər güdürlər. Ən böyük zərbəni isə mənəvi sərvətlərimiz alır. Görün bu məmurlar nə edirlər? 80 yaşlı anamı, 50 yaşlı bacını gətirib bir rusa ərə verirlər! Nədir, bunun müqabilində pul qazanacaqlar".

"Tarixi müşavirə" zamanı prezident Əbülfəz Elçibəy dəfələrlə çıxışlara müdaxilə etdi, baş verənləri qiymətləndirdi, öz mövqeyini bildirdi. Amma onun dedikləri hərdən qeyri-ciddi xarakter daşıyırdı. Çünki komanda üzvləri sevimli rəhbərlərini elə bir vəziyyətə gətirmişdilər ki, dediklərinin məntiqinə varmırdı.

Yaxşı olar ki, bir neçə sitatı nəzərdən keçirək.

Prezident Əbülfəz ELÇİBƏY:

"Respublikada talançılıq baş alıb gedir. Nizami demişkən, əgər oğurlanan maldan gözətçinin xəbəri yoxdursa, demək, gözətçinin orada əli var. Burada milis orqanıdır, prokuror orqanıdır və bir də məhkəmə orqanıdır. Burada oturan orqanların əli həmin cinayətdə var. Bunu nə ilə izah edərdiniz? Bax, hamımız buradayıq. Demirik hüquqi dövlət qururuq... Onda bu ölkəni niyə dağıdırsan? Başa düşmürəm... Xarici iqtisadi əlaqələr pozulur, benzin, neft, taxıl respublikadan dağıdılır. Azərbaycanın rayonlarında benzin tapılmır".

***

"Rüşvət alanda milyonlarla dollar alırsınız, alırsan, heç olmasa yüz minlərlə al, beş manat al, insafla al".

***

"Münaqişəni aradan qaldırmaq indi çətin deyil. Müqavilə imzalayacağıq, bir müddət onu gizli saxlayacağıq, bir 10 gündən, 20 gündən sonra onu açıq elan eləyərik. Bu, əslində, mənim təklifimdir. Ermənistana çatdırmışam ki, nədir axı bu böyük dövlətləri salmısan, arada bizi qırdırır və biz bir-birimizi qırırıq. İndi deyirəm ki, Zəngilandan çıxsınlar, otursunlar sərhədlərdə, kəndləri qaytarsınlar. Sonra Qazaxdan, Tovuzdan çıxacaqlar. Biz də sərhədləri qıraqlardan bağlaya-bağlaya gəlib çıxacağıq Qarabağa. Onunla da problemi həll edəcəyik".

***

"Məni yandıran odur ki, Azərbaycanda xaricilərin əli ilə oynayanlar var. Mən bilsəydim ki, Həsəndir, Hüseyndir, gedib deyərdim, sən Allah, bunu eləmə. Onlar elə günə düşüblər ki, geriyə qayıtmağa yol yoxdur. Çox böyük fəlakət gəlir millətin üstünə. Biz də otururuq, deyirik ki, hələ görən filankəsə nə olacaq. Biz, doğrudan da, dövlətimizi itirəcəyik. İtirməyəcəyik, bu dövlət yenə də bir vaxt yaşayacaq. Amma biz qanın içində gedəcəyik".

Sonda dövlətə başçılıq edən komanda üzvlərini hədələməyi də unutmadı:

"İndi nə olacaq, nə olmayacaq, bilmirəm. Ancaq mənim ümidim var ki, müəyyən qədər dövrü keçirə bilərəm. Bir dəfə demişəm, indi də deyirəm ki, bir həsirəm, bir də Məmmədnəsir, bu həsirimi ataram çiynimə, hakimiyyətdən gedərəm evimə. Dərviş kimi bir şeyəm..."

Əbülfəz Elçibəy sonda dediyi kimi də etdi: komandası ona naxələf çıxdığından, dövləti xaos və anarxiya burulğanında, rüşvət və korrupsiya çirkabında boğduğundan həsirini çiyninə alaraq Kələkiyə getdi!

Amma dediklərinin içində həqiqətə çevrilənlər də oldu:

* Gedəndə qan içində getdilər, vətəndaş müharibəsini alovlandırıb aradan çıxdılar!
* Bu dövlət yenə də yaşayır və yaşayacaq!

Çünki dövləti yaşadanlar, qoruyub inkişaf etdirə bilənlər hakimiyyətə qayıtdı!

Xalq da onları daim dəstəkləyir və arxasında durur.

Əgər kimsə hesab edir ki, «vəzifənin donunu açıb" geriyə qayıtmaq zamanıdır, ciddi şəkildə yanılır!

Ötən əsrin 90-cı illərini görənlər və həmin dövrün faciəli günlərini yaşayanlar var!
Onlar heç nəyi unutmayıblar!
Hətta nəinki unutmayıblar, baş verənləri öz övladlarına və nəvələrinə də danışıblar!

Nə qədər bu üç nəsil yaşayır, xəyanətkarlar, naşılar, səriştəsizlər, müstəqilliyə qənim kəsilənlər, düşmən qüvvələrin əlində Azərbaycana qarşı alətə çevrilənlər geriyə qayıda bilməz!

90-cı illərdə baş verənlərdən əyani dərs alanları bir daha aldatmaq mümkün deyil!
Bu gün «5-ci kolon"a çevrilən keçmişin tör-töküntüləri 5-3 nəfəri müvəqqəti başdan çıxara bilərlər!
Bütöv xalqı isə daha aldatmaq mümkün deyil!..
Xüsusən də əgər xalq belələrinin dabbaqda gönünə bələd olubsa!

Bəxtiyar SADIQOV,
Azərbaycan qəzeti,
05 fevral 2019-cu il

İstanbulda XXII Avrasiya İqtisadi Zirvə toplantısı keçirilmişdir

Fevralın 6-da İstanbul şəhərində XXII Avrasiya İqtisadi Zirvə toplantısı işə başlayıb.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycan hər il olduğu kimi, geniş tərkibli nümayəndə heyəti ilə təmsil olunub. Nümayəndə heyətinə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Milli Məclis sədrinin müavini Valeh Ələsgərov, energetika naziri Pərviz Şahbazov, qeyri-hökumət təşkilatlarının nümayəndələri, media təmsilçiləri daxil olmuşdur.

Toplantıda 40-a yaxın ölkənin yüksək səviyyəli dövlət və hökumət nümayəndələri, sabiq prezidentlər, deputatlar, beynəlxalq təşkilatların təmsilçiləri, ictimai-siyasi xadimlər iştirak ediblər. Builki tədbir "Gələcək üçün məsuliyyət" devizi altında keçirilib.

İki gün davam edən toplantıda texnologiyaların inkişafı və insanların gələcəyi, süni zəkanın iqtisadiyyatda və enerji sahəsində rolu, qloballaşmanın yeni səviyyələri, su və enerji ilə bağlı mövzular diqqət mərkəzində olmuşdur.

Zirvə toplantısının açılışında Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov dövlətimizin başçısı İlham Əliyevin iştirakçılara təbrik məktubunu oxuyub.

Məktubda bildirilir ki, Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin ənənəvi olaraq hər il təşkil etdiyi belə toplantılar Avrasiya regionunun dayanıqlı inkişafına, dövlətlər və xalqlar arasında dostluq və etimad mühitinin möhkəmləndirilməsinə xidmət edir. Azərbaycan Respublikası Avrasiyada qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, hər bir ölkənin təbii və iqtisadi potensialının, kommunikasiya imkanlarının xalqlarımızın mənafeyi naminə məqsədyönlü şəkildə istifadə olunması siyasətinə sadiqdir. Biz daim bölgənin inkişafı üçün daha əlverişli zəmin yaradan mütərəqqi ideyaları, nəhəng enerji və nəqliyyat layihələrini dəstəkləyir, bu istiqamətdə region dövlətləri, o cümlədən qardaş Türkiyə Respublikası ilə birgə çalışırıq. 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun, ötən il isə Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan Trans-Anadolu qaz boru kəmərinin (TANAP) istifadəyə verilməsi, eləcə də İzmirdə "STAR" neft emalı zavodunun açılması çoxşaxəli müştərək fəaliyyətimizin möhtəşəm nəticələrini əyani şəkildə nümayiş etdirir.

Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Binəli Yıldırım bu Zirvə toplantısının Avrasiya regionu daxil olmaqla bütün dünyada sülhə, təhlükəsizliyə, iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlığa töhfə verdiyini söyləyib.

Tədbirdə çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov Avrasiya İqtisadi Zirvəsinin fəaliyyətini uzun illərdir sülh və dialoqu təşviq edən uğurlu əməkdaşlıq formatlarından biri kimi qiymətləndirib. Bu sammitlərin qloballaşma dövründə yeni çağırışların müzakirə edildiyi bir platforma kimi Avrasiya regionunda əməkdaşlığın inkişafına töhfələr verdiyini qeyd edib.

O, həmçinin ölkəmizin neft-qaz potensialı və enerji resurslarının reallaşdırılmasında beynəlxalq enerji şirkətləri ilə birgə həyata keçirilən layihələr barədə məlumat verib.

ŞƏHİDLƏR QAN YADDAŞIMIZDIR

Müsahibimiz akademik, Milli Məclisin (MM) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadədir:

- Bildiyiniz kimi, Azərbaycan xalqı öz müstəqilliyi, azadlığı, ərazilərinin bütövlüyü və toxunulmazlığı uğrunda mübarizədə tarix boyu çoxlu şəhidlər verib. Eyni zamanda, 31 ildir ki, Ermənistanın işğalçılığına, təcavüzkarlığına məruz qalmışıq və işğal faktı hələ də davam etməkdə, hələ də şəhidlər verməkdəyik. Ona görə də söhbətimizə elə şəhidlikdən və şəhidlərdən başlamaq istərdik.

- Öncə qeyd edim ki, şəhid sözü ərəb sözü olub, mənası öz gözləri ilə görən, şahidlik edən deməkdir. Bu söz müqəddəs dini kitabımız Quranda 50 yerdə keçir. Şəhid sözünün Allah yolunda canından keçən mənası da var ki, bu, Hz.Peyğəmbər tərəfindən işlədilmişdir: **"Mən onların (şəhidlərin) Allah yolunda canlarından keçdiklərinə şahid və şəfaətçiyəm".** Şəhidlik, eyni zamanda, vətən, xalq, dövlət, millət, haqq, ədalət yolunda canından keçmək, özünü fəda etmək etməkdir. Şəhidlik könüllü şəkildə, bilə-bilə özünü odun-alovun içinə atmaq, bir an belə tərəddüd etmədən, göz qırpmadan ölümün üzərinə getmək, ölümün gözünə dik baxmaqdır. Şəhidlik elə bir zirvədir ki, heç də hər bir Allah bəndəsi bu zirvəyə ucala, yüksələ bilmir. Bu zirvəyə o insanlar yüksəlir, ucalırlar ki, onlar vətən, millət, dövlət yolunda ölümün üzərinə yürüyə, ölümün gözlərinin içinə dik baxa bilirlər. Şəhidlikdən şəhidlər yaranır, şəhidlikdən şəhidlər doğulur.

Şəhidlər milli qürur mənbəyi, milli iftixar hissi, and, namus yeri, baş tacıdır. O xalqlar, o dövlətlər xoşbəxtdir və öz ayaqları üzərində ona görə duruş gətirə, dayana bilirlər ki, onların uğrunda canından keçən, canını fəda edən vətən övladları, şəhidləri var. Bəli, heç kim istəməz ki, kiminsə övladı, oğlu, qızı bu dünyadan arzuları, diləkləri gözlərində, ürəklərində qalmış, nakam getsin, vaxtsız və çox erkən yaşlarında dünyasını dəyişsin. Amma həyatın, gərdişi-dövranın öz reallıqları, öz tələbləri var. Müstəqil, azad, hürr yaşamaq istəyirsənsə, onun yolu həm də Şəhidlikdən keçir və keçməlidir.

Bəli, Azərbaycan xalqı, Azərbaycan türkləri də yarandığı gündən öz azadlığı, öz müstəqilliyi, öz bütövlüyü uğrunda tarix boyu çoxsaylı şəhidlər verib. Vətən torpaqlarımız qanlı göz yaşları, şəhid qanları ilə yoğrulub, suvarılıb. Xüsusilə də, iki dəfə müstəqillik əldə etdiyimiz ötən 20-ci əsrdə xalqımız böyük və qanlı istiqlal savaşından keçib. İstər 20-ci əsrin əvvəllərində, xüsusilə, 1918-ci ilin ilk aylarında, mart ayında xalqımız həm azadlığı, həm torpaqlarının bütövlüyü uğrunda məkrli qonşularımızla və onların himayədarları ilə mücadilədə minlərlə övladını itirib, minlərlə oğul-qızı şəhid olub, yaralanıb, şikəst, əlil olub. 1918-ci ilin 31 Mart soyqırımı tarixin ən qanlı və ən amansız səhifələrindədir. Həmin hadisələrin, qırğınların yanğısı, göynərtisi, sızıltısı, acısı hələ də canımızda, ruhumuzdadır. Üstündən 100 ildən artıq vaxt ötsə də, hələ də 31 Mart soyqırımı yaddaşlarda, hafizələrdədir və üzərindən bundan sonra əsrlər, qərinələr keçsə belə, heç zaman unudulmayacaq, heç zaman yaddaşlardan silinməyəcək. Artıq 31 Mart təqvimdə də qara günlərimizdən biri - soyqırımı günü kimi yer almaqdadır. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakmiyyətə qayıdışından sonra 31 Mart azərbaycanlıların soyqırımı günü kimi tanındı, bununla bağlı fərman verildi və hər ilin 31 mart tarixində Azərbaycan daxil olmaqla, dünyanın hər yerində, azərbaycanlıların məskunlaşdıqları bütün ölkələrdə 1918-ci ilin mart qırğınları və bu qırğınlar zamanı şəhid olmuş vətən övladları anılır, yad edilir, onların ruhlarına dualar oxunur. Şəhidlərimizin qanı ilə qurulmuş ilk müstəqil dövlətimiz, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) süquta uğradılmasından, Azərbaycanın növbəti dəfə ilhaqından sonra da xalqımız şəhidlər verməkdə davam etdi. Sovet quruluşuna qarşı Gəncədə və Şəkidə baş verən üsyanlarda xeyli sayda insanımız qətlə yetirildi, öldürüldü, şəhid oldu. Eyni zamanda, 1988-ci ilin yanvar-fevral aylarında erməni şovinistlərinin Azərbaycana qarşı növbəti ərazi iddiası ilə başlayan və təəssüflər olsun ki, ikili standartlar üzündən hələ də ədalətli həllini tapmayan Qarabağ münaqişəsi və eləcə də, həmin vaxtdan yüsət alan növbəti milli-azadlıq mübarizəsi nəticəsində yenidən şəhidlər verməyə başladıq. Qarabağ münaqişəsi başlayandan bu yana - son 31 il ərzində on minlərlə vətən övladı Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı yolunda canından keçdi, şəhid oldu. Minlərlə azərbaycanlı yaralandı, xəsarət aldı, ömürlük şikəst, əlil oldu, yüzlərlə insanımız əsir, itkin düşdü və itkin düşən vətəndaşlarımızın hələ də çoxundan xəbər yoxdur. Erməni qaniçənləri və onların qanlı havadarları ötən illər ərzində çoxsaylı terraktlar - hava, dəniz limanlarında, dəmiryolu, avtobus vağzallarında, metroda qanlı terror əməlləri törətdilər, yüzlərlə vətən övladını itirdik. Bağanis-Ayrım, Xocalı, Daşaltı, Ağadaban, Meşəli, Cəmilli, Qaradağlı, 20 noyabr və sair faciələri, soyqırımları həyata keçirildi və bu faciələrdə, qanlı soyqırımı aktlarında şəhid düşənlərimizin sayı mini keçməkdədir. Həmçinin, keçmiş SSRİ rəhbərliyinin, Azərbaycan xalqına qənim kəsilmiş ermənipərəst Qorbaçov hakimiyyətinin 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıda, ondan bir neçə gün sonra isə Lənkəranda və Neftçalada törətdiyi qırğınlar, çoxsaylı şəhidlərimiz heç zaman və heç vaxt yaddaşlardan silinməyəcək, tarixdə gizlədilməsi mümkün olmayacaq qanlı hadisələrdir və xalqımız, müstəqil dövlətimiz yaşadıqca, əbədiyyən var olduqca, həmin qətliamlar, qanlı hadisələr də bizimlə yaşayacaq, xatırlanacaq, yad ediləcək. Müqəddəs şəhidlərimiz, bu gün Bakımızın Dağüstü Parkında - Şəhidlər Xiyabanında, eləcə də ölkəmizin hər bir rayon və şəhərində, kənd və qəsəbəsində insanların and yerinə çevrilən şəhidlər xiyabanlarında uyuyan şəhidlərimiz anılacaq, onların əziz ruhlarına fatihələr, dualar oxunacaq.

Eyni zamanda, Qarabağ savaşı, Qarabağ münaqişəsi bu gün də davam etməkdə, bu gün də şəhidlər verməkdəyik. Mübariz İbrahimovlar, Raquf Orucovlar və digər vətən övladlarımız, şəhidlərimiz bu gün bizim, Azərbaycan xalqının and yeridir, baş tacımızdır. Məhz belə oğulların, vətən övladlarının, 2016-cı ilin Aprel döyüşlərində, Aprel zəfərində, Lələtəpənin, Cocuq Mərcanlının azad olunmasında, eləcə də bir neçə ay öncə, 2018-ci ilin yayında uğurlu Cünnüt əməliyyatında canından keçən igidlərimizin sayəsində Azərbaycanımız, şəhidlərin qanı, canı ilə 1991-ci ildə ikinci dəfə istiqlalına qovuşan məmləkətimiz ötən 28 ildə öz ayaqları üzərində dimdik dayana, nəinki yerləşdiyi bölgənin, həm də dünyanın ən inkişaf etmiş, lider dövlətlərindən birinə çevrilib.

Düzdür, ötən illər ərzində dünyanın ikili standatları, Ermənistanın desrtuktiv, dağıdıcı fəaliyyəti, Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə məşğul olduqları iddia edilən ATƏT-in Minsk qrupunun dişsizliyi, qətiyyətsizliyi, bəsirətsizliyi, bir çox hallarda da işğalçı ilə işğala məruz qalanı eyniləşdirməsi üzündən Qarabağ probleminin həlli mümkün olmayıb, ancaq bununla belə, Azərbaycan dövləti, ölkə prezidenti yenə sülh danışıqlarına üstünlük verməkdə, paralel olaraq, Azərbaycanın ordu quruculuğunu gücləndirməkdə, müdafiə, döyüş qabiliyyətini artırmaqda, yüksəltməkdədir. Bu gün Azərbaycan dövləti və Azərbaycan ordusu düşmənin istənilən həmləsinə cavab vermək, onu geri oturtmaq gücündə və qüdrətindədir. 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Cünnüt əməliyyatı Azərbaycan dövlətinin və Azərbaycan ordusunun nələrə qadir olduğunu və ola biləcəyini bir daha dünyanın gözləri önünə sərdi. Bütün dünyaya nümayiş etdirildi və bir daha sübut edildi ki, Azərbaycan xalqı və Azərbaycan dövləti öz ərzilərinin bir qarışını belə kimsəyə güzəştə getmək niyyətində deyil və bunu gözləməyin özü belə ən böyük yanlışlıqdır...

Azərbaycan prezidentinin də bəyan etdiyi kimi, biz bundan sonra da öz hərbi gücümüzü artıracağıq:

"Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz istəmirik ki, şəhidlər olsun, istəmirik ki, gənclərimiz şəhid olsun. Münaqişəni sülh yolu ilə həll etmək üçün həm siyasi, həm iqtisadi, həm hərbi güc olmalıdır. Bu gün bu üç amil var və ölkəmizi gələcəyə aparır...".

- Ziyad müəllim, bəs, bu gün Azərbaycan dövlətinin şəhidlərə, şəhid ailələrinə münasibətini necə dəyərləndirərdiniz, bu münasibət Sizcə, qənaətbəxşdirmi, yetərincədirmi? Bəzən bununla da bağlı narahatlıqlar ifadə olunur...

- Bilirsiniz, şəhid ailələrinə dövlət qayğısının göstərilməsi Azərbaycanın daxili siyasətində ən əsas və prioritetdir. Bu, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-mənəvi yoldur. Xatırladım ki, ulu öndərimizin təşəbbüsü ilə "Şəhid adının əbədiləşdirilməsi haqqında" Qanun qəbul olunmuşdu və bu qanun məhz Heydər Əliyevin 1993-cü il 3 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdi. Bütövlükdə, ümummilli liderimiz Heydər Əliyevin siyasətində şəhid ailələrinə dövlət qayğısı xüsusi yer tutmuşdur.

Hazırda Prezident İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. 2003-cü ildən indiyə qədər bu istiqamətdə görülən işlər bunu sübut edir. Bilirsiniz ki, ötən il keçirilmiş prezident seçkilərindən sonra dövlət başçısı İlham Əliyevin imzaladığı ilk Fərman şəhid ailələri ilə bağlı oldu. Yanvarın 28-də şəhid ailələri ilə görüşündə çıxışı zamanı da dövlət başçısı bunun təsadüfi olmadığına diqqət çəkdi.

O, "Mən istənilən sahə üzrə fərman imzalaya bilərdim. İqtisadi sahə üzrə, xarici siyasət, sosial məsələlərlə bağlı. Ancaq mən hesab etdim ki, birinci Fərman şəhid ailələri ilə bağlı olmalıdır. Bu Fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulur. Yenə də deyirəm, mən heç bir ölkə ilə Azərbaycanı müqayisə etmək istəmirəm, ancaq bu da həqiqətdir ki, Azərbaycan bir çox ölkələrə bu sahədə nümunə göstərir", - deyərək bildirdi ki, artıq ödəmə prosesi başlayıb və verilən məlumatlara görə, üç mindən çox şəhid ailəsi 11 min manatı alıb.

"Ancaq bu proses zamanı məlum oldu ki, vaxtilə müavinəti alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Yəni, o illərdə - 1990-cı illərin əvvəllərində rəqəm böyük olsa da, - o vaxt 50 min manat nəzərdə tutulurdu, - ancaq o vaxtın 50 min manatı bu günün 11 min manatı ilə heç də müqayisə oluna bilməz", - deyən dövlət rəhbəri bu məsələ ilə də bağlı ictimaiyyətə öz fikrini çatdırdığını dedi və bildirdi ki, məsələ ciddi araşdırılmalıdır və burada iki əsas amil üstünlük təşkil etməlidir: qanun və ədalət.

Dövlət başçısı sonra "Bir tərəfdən, vaxtilə bu müavinəti alan vətəndaşlar bu siyahıya daxil edilməməlidir, bunu qanun və qaydalar tələb edir. Digər tərəfdən, biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq. Bunu nəzərə alaraq, mən bu gün yeni Fərman imzaladım. Bu Fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Onların içərisində təbii ki, vaxtilə müavinəti az məbləğdə alan vətəndaşlardır və ümumiyyətlə, siyahıya düşməyən daxili işlər orqanları şəhid ailələrinin nümayəndələridir", - dedi və sözlərinə əlavə etdi ki, həmin vətəndaşların da sayı 460-dan çoxdur.

İndiyə qədər 7 minə qədər şəhid ailəsi mənzillə təmin olunub. Təkcə keçən il 626 şəhid ailəsinə yeni mənzillər, yeni evlər verilib. Bu il isə əlavə 800 şəhid ailəsinə yeni mənzillər, evlər veriləcək. Beləliklə, növbəti bir neçə il ərzində bütün şəhid ailələri evlərlə, mənzillərlə təmin ediləcəklər. Dövlət başçısının dediyi kimi, "bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin".

Bununla yanaşı, şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı, prezident təqaüdü verilir. Eyni zamanda, şəhid adının əbədiləşdirilməsi ilə bağlı addımlar atılır, onların əziz xatirəsi daim yad edilir.

- Yeri gəlmişkən, Sizin də xatırlatdığınız kimi, ölkə Prezidenti İlham Əliyev və birinci xanım, birinci vitse-prezident Mehriban Əliyeva yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşdülər. Bu görüşün əhəmiyyəti nədən ibarətdir?

- Bu görüş bir daha göstərdi ki, Prezident İlham Əliyev şəhid ailələrinə nə qədər böyük qayğı, hörmət və ehtiram göstərir. Bu görüşün sosial-siyasi əhəmiyyəti ilə yanaşı, milli-mənəvi, vətənpərvərlik baxımından da çox böyük önəmi var. Görüş zamanı dövlət başçısı vətəndaşların sosial məsələlərinin bundan sonra da diqqət mərkəzində olacağını bildirdi. Cənab Prezident xüsusilə vurğuladı ki, Azərbaycan xalqı şəhidlərimizlə fəxr edir, şəhidlərimiz daim bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaqdır. "Azərbaycan xalqına xidmət etmək mənim üçün böyük şərəfdir. Prezident kimi həmişə çalışmışam ki, xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanın hərtərəfli inkişafına təkan verim", - deyən ölkə başçısı ölkəmizdə vətəndaşların sosial rifahının daim diqqət mərkəzində olduğunu vurğuladı.

Görüşdə şəhid ailələrinə dövlət tərəfindən verilən dəstək bir daha vurğulandı. Qeyd olundu ki, bu günə qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6 mindən çox şəhid ailəsinə minik avtomobilləri verilib. Yəni, bu, dövlətimizin şəhid ailələrinə olan münasibətinin təzahürüdür. Bu proses davamlı olacaq. Ümumiyyətlə, cənab prezidentin fikirləri bütün cəmiyyətimiz üçün mesajdır ki, hər kəs şəhid ailələrinə hörmətlə yanaşmalıdır.

Eyni zamanda, ölkənin birinci xanımı, birinci vitse-prezident Mehriban Əliyevanın şəhidlərə, şəhid ailələrinə, müharibə əlillərinə münasibəti, diqqət və qayğısı hər bir kəs üçün nümunə və örnəkdir. 2016-cı ilin uğurlu Aprel döyüşlərindən bir müddət sonra Mehriban xanımın şəhid anaları ilə görüşü, onların dərdlərinə şərik çıxması, şəhid analarını qucaqlaması, onları bağrına basması, şəfqətlə, ürək yanğısı ilə onları ovundurması əsl sadəlik və insanlıq nümunəsidir. Eyni zamanda, Aprel döyüşlərinin iştirakçıları, bu döyüşlərdə böyük igidlik, qəhrəmanlıq nümunələri göstərmiş və əlil olmuş hərbçilərlə, əsgərlərlə görüşü Mehriban xanımın bu kateqoriyadan olan insanlara necə yüksək münasibət göstərməsinin, onlara necə böyük diqqət və qayğısının əyani və bariz nümunəsidir. Biz bunu Mehriban xanımın şəhid ailələri ilə görüşündə də bir daha gördük, müşahidə etdik.

Bunları deməkdə və xatırlatmaqda məqsədim odur ki, istər ulu öndərin dövründə, istərsə də ölkə prezidenti İlham Əliyevin 16 illik hakimiyyəti dönəmində hər zaman şəhidlərə, şəhid ailələrinə, müharibə veteranlarına, müharibə əlillərinə böyük qayğı və diqqət olub və bu gün də bu xətt davam etdirilir, əsas prioritetlərdən birini təşkil edir. İndi kimlərsə, yəni ölkəmizin müstəqiliyini, müstəqil inkişafını həzm edə bilməyənlərin, anti-Azərbaycan dairələrin təsiri altına düşənlər bu işləri, bu qayğı və diqqəti görmürlərsə, görmək istəmirlərsə, şəhid, şəhidlər adından siyasi xal, kapital toplamaq üçün həqiqətləri yanlış səmtə döndərmək istəyirlərsə, çox böyük yanlışlığa və günaha yol verirlər. Çünki həqiqəti, reallığı danmaq, görməzdən gəlmək, onu kölgələmək, onun üzərini palçıqla suvamaq mümkün deyil və buna cəhd edənlərə də heç bir halda uğur, başucalığı gətirə bilməz, gətirməyəcək də. Artıq Azərbaycan xalqı hər şeyin fərqindədir, onu yalançı, saxta sözlərlə, vədlərlə yolundan döndərmək mümkün olan məsələ deyil.

Azərbaycan xalqı müdrikdir, qədirbiləndir, yaxşını pisdən, ağı qaradan ayırmağı bacarandır. Azərbaycan xalqı görür və bilir ki, kim kimdir, kim onun yanındadır, kim ona arxa-dayaqdır, kim ona sahib çıxır. Bu gün Azərbaycan xalqı bütün məsələlərdə olduğu kimi, bu məsələdə də dövlətinin, dövlət rəhbərinin yanındadır. Bu gün Azərbaycanda xalq-iqtidar vəhdətidir və bu vəhdətin, bu birgəliyin pozulmasına, əngəllənməsinə yönələn bütün cəhdlər uğursuzluğa məhkum olacaq, fiaskoya uğrayacaq. Buna kimsənin zərrə qədər də şübhəsi olmasın.

Müsahibəni apardı:
Kamil

«Ölkəmizin gələcəyi gənclərin əlində olacaq»

Bu fikirləri fevralın 1-də Bakı Konqres Mərkəzində keçirilən Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir.

Tədbirdə nitq söylən dövlət başçısı bildirmişdir ki, Azərbaycanda Gənclər Günü 22 ildir ki, qeyd olunur. 1997-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Günü təsis edildi. Ulu öndər gənclərə həmişə böyük qayğı, sevgi ilə yanaşırdı. Azərbaycanda müasir gənclər siyasəti isə 1994-cü ildə başlamışdır. O il ulu öndər Gənclər və İdman Nazirliyini yaratdı. Gənclər və İdman Nazirliyinin yaradılması çox əlamətdar hadisə idi. Azərbaycanda gənclər siyasəti məhz 1994-cü ildən icra edilməyə başlanılmışdır.

Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər.

Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir.

Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda - Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır. Bu gün ordu quruculuğu istiqamətində atılan addımlar təbiidir, zəruridir. Çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib. Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğalçılardan azad edək.

Azərbaycanda könüllülər hərəkatı geniş vüsət almışdır. Təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işləyir, xeyir gətirir. Bu gün "ASAN xidmət" bizim milli intellektual, innovasiya məhsulumuzdur. Artıq bir neçə ölkə bizim köməyimizlə bu sistemi tətbiq etməyə başlayıb. "ASAN xidmət" yeni bir xidmət növüdür və təsadüfi deyil ki, vətəndaşların bəyənmə əmsalı 100 faizə yaxınlaşır.

Bizim gənclərimiz bu gün iqtisadiyyatın müxtəlif sahələrində, dövlət təşkilatlarında işləyirlər. Mənim də tövsiyəm ondan ibarətdir ki, gəncləri dövlət təşkilatları önə çəksinlər. Çünki gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır.

Bu gün gənclərə ölkə qarşısında duran bəzi vəzifələr haqqında qısaca öz sözlərimi demək istəyirəm. Ölkəmizin sürətli və uğurlu inkişafı davam edir, ölkə qarşısında duran bütün vəzifələr icra olunur. Bu gün Azərbaycan dünyada çox sürətlə inkişaf edən ölkə kimi tanınır. Biz isə əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq və ilk növbədə, bu gün həll edə bilmədiyimiz məsələləri həll etməliyik, nöqsanları, problemləri aradan qaldırmalıyıq. Əlbəttə ki, gənclər bu sahədə bizim ən birinci yardımçılar ola bilərlər və olmalıdırlar.

Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, milli maraqları qorumaqdır. Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm. Sizi qarşıdan gələn Gənclər Günü münasibətilə bir daha təbrik edirəm və gənclərə "Eşq olsun!" deyirəm.

Daha sonra gənclərin nümayəndələri çıxış etmiş, bir qrup gəncin təltif olunması mərasimi keçirilmişdir.

Ölkəmizdə müasir uşaq müəssisələrinin inşası davam edir

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması və vətənpərvər, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində Azərbaycan dövləti çox mühüm layihələr həyata keçirir. Ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələri yenidən qurulur, müasir uşaq müəssisələrinin inşası davam edir. Bu gün uşaq bağçalarında yaradılan şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verir, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi böyüməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 1-də Daxili İşlər Nazirliyinin Bakı şəhərinin Xətai rayonunda yeni inşa olunmuş 6 saylı uşaq bağçasının açılışında iştirak edib.

Daxili işlər naziri Ramil Usubov məktəbəqədər təhsil ocağında yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat vermişdir ki, 6 saylı uşaq bağçasının inşasına 2017-ci ilin dekabrında başlanılıb. Əsasən əlahiddə çevik polis alayında çalışanların övladları üçün nəzərdə tutulan məktəbəqədər təhsil müəssisəsində 4-ü Azərbaycandilli, 3-ü isə rusdilli bölmə olmaqla 7 qrup fəaliyyət göstərəcək. Burada balacalara ingilis dili də öyrədiləcək. Uşaq bağçasında bir yaş yarımdan beş yaşadək 140 uşağın təlim-tərbiyəsi ilə 46 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq. Uşaq bağçasının əsas binasının planlaşdırma quruluşu uşaqlarla aparılan təlim-tərbiyə işlərinin məzmununa uyğun həll olunub.

Bağça azyaşlı sakinlərin zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək.

Mərkəzi Bank uçot dərəcəsini azaltdı

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 9,75%-dən 9,25%-ə endirilməsi haqqında qərar qəbul etmişdir. Faiz dəhlizinin yuxarı həddi 11,25%, aşağı həddi isə 7,25% (uçot dərəcəsinə ±2%-lik simmetrik diapazonda) səviyyəsində müəyyən edilmişdir. Qərar 1 fevral 2019-cu ildən qüvvəyə minir.

İdarə Heyətinin pul siyasətinə dair son toplantısından keçən dövr ərzində inflyasiya gözlənilən meyil üzrə dəyişmiş, aşağı birrəqəmli səviyyədə qalmışdır.

İnflyasiyanın yüksəlməsi riskləri nisbətən səngiməkdədir. Qəbul edilmiş makroiqtisadi sabitlik çərçivəsi, xarici sektor göstəricilərinin yaxşılaşması, valyuta bazarında tarazlı vəziyyətin davam etməsi, inflyasiyanın faktiki səviyyəsinin və qiymət artımı gözləntilərinin aşağı olaraq qalması, fiskal qaydaların qəbul edilməsi monetar şəraitin normallaşdırılmasının davam edilməsinə imkan verir. Eyni zamanda, bir sıra daxili və xarici inflyasiya amilləri, riskləri nəzərə alınmaqla pul siyasətinin antiinflyasyon xarakteri saxlanılır.

İnflyasiya prosesləri. Son 2 ayda qiymətlərin dinamikasına təsir göstərən amillər başlıca olaraq mövsümi və birdəfəlik xarakter daşıyır. Monetar şərait inflyasiyaya məhdudlaşdırıcı təsir göstərməkdə davam edir. Nəticədə, dekabrda aylıq inflyasiya cəmi 0,8% təşkil etmişdir. Dekabrda istehlak səbətinə daxil olan məhsulların 31%-nin qiyməti dəyişməmiş, 15%-nin qiyməti azalmışdır. Bahalaşan məhsulların əsas hissəsinin qiymət artımı 2%-dən aşağı olmuşdur.

2018-ci ilin yekunu üzrə isə orta illik inflyasiya 2,3% olmuşdur ki, bu da ötən illə (12,9%) müqayisədə 10,6 faiz bəndi azdır. Beynəlxaq praktikada başlıca inflyasiya göstəricisi kimi istifadə olunan qiymət indeksinin 12 aylıq dəyişimi 1,5% olmuşdur ki, bu da əvvəlki illə (7,9%) müqayisədə 6,4 faiz bəndi azdır. Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsullarının qiymət dəyişimi nəzərə alınmadan hesablanan orta illik baza inflyasiya 2018-ci ildə 1,8% təşkil etmişdir.

İnflyasiya gözləntiləri və proqnozlar. Ümumilikdə, iqtisadi subyektlərin inflyasiya gözləntiləri faktiki inflyasiya ətrafında sabitləşməkdədir.

Xarici şərait. 2018-ci ilin sonuncu rübündəki azalmanın ardınca neftin dünya qiyməti 2019-cu ilin yanvar ayında artıma meyil etmiş və bir barrelə görə 60 ABŞ dolları səviyyəsinə qayıtmışdır. Neftin qiyməti dekabrın sonundakı dib nöqtəsi ilə müqayisədə 20%-dən çox artmışdır.

Cari ilin yanvar ayında ölkənin strateji valyuta ehtiyatlarının 3% artaraq 46 mlrd. ABŞ dollarını üstələməsi tədiyə balansının profisitli olaraq qaldığını təsdiq edir.

İqtisadi aktivlik. İqtisadi artım tempinin 2018-ci ilin 4-cü rübündə, xüsusən də dekabr ayında yüksəlməsi müşahidə edilmişdir. 2018-ci ilin sonuna iqtisadi artım 1,4% təşkil etmişdir. İqtisadi artım qeyri-neft sektorunda 1,8% olmuşdur ki, bu da əsasən ticari sektordan qaynaqlanmışdır. Qeyri-neft sənayesində 9,1%, kənd təsərrüfatında 4,6% artım müşahidə olunmuşdur.

İnflyasiya riskləri. İnflyasiyanın risk balansında sabitləşdirici amillərin rolu artmaqdadır. Artıq tətbiqinə başlanmış makroiqtisadi çərçivə inflyasiyanın hədəf daxilində saxlanılmasını dəstəkləyir.

Monetar şərait. Mərkəzi Bank tərəfindən monetar şəraitin normallaşdırılması istiqamətində qərarlar inflyasiyanı hədəf çərçivəsində saxlamaqla iqtisadi artımın potensial səviyyədə davam etməsinin dəstəklənməsi arasında balansın saxlanılmasına xidmət edir. İdarə Heyətinin pul siyasətinə dair son toplantısından keçən dövr ərzində monetar şərait bir neçə amildən təsirlənmişdir. Manatla pul bazası hökumət hesabları qalığının dəyişimindən asılı olaraq dəyişmişdir. Real sektorun kreditlərə olan tələbinin artması bankların likvidliyə olan tələbini yüksəldir ki, bu da depozitlər üzrə faiz dərəcələrinə artırıcı təsir göstərir. Fiziki şəxslərin manatla müddətli əmanətlərinin yüksək sürətlə (2018-ci ildə 23,6%) artmaqda davam etməsi milli valyutada yığımların cəlbedici olduğunu göstərir.

Mərkəzi Bank bundan sonra da faiz dəhlizinin parametrlərinə dair qərarlarını inflyasiyanın faktiki və proqnoz səviyyəsi, habelə risk ssenarilərinin reallaşması səviyyəsindən asılı olaraq verəcəkdir.

Pensiya sisteminin inkişafına dair beşillik dövr üçün yol xəritəsi hazırlanır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial sahə ilə bağlı uğurlu islahatlar proqramının mühüm istiqamətlərindən biri pensiya sisteminin inkişaf etdirilməsi, bu sistemin əhatəliliyinin və pensiyaların artırılması, pensiya təminatı sahəsində sosial ədalət prinsipinin gücləndirilməsidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bu istiqamətdə aparılacaq islahatların, atılacaq addımların növbəti beş illik dövrü üçün yol xəritəsi hazırlanır.

Nazirlikdən verilən məlumata görə, bu məqsədlə müvafiq təkliflərin hazırlanması üçün nazirlikdə işçi qrupu fəaliyyət göstərir və bu işlərə beynəlxalq ekspertlər də cəlb edilib. Dövlət başçısının tapşırığına əsasən aparılan islahatların bir istiqaməti də pensiya sisteminin təşkilatlanmasının milləşdirilməsi işləri çərçivəsində minimum və orta pensiyanın artım tempinin davam etdirilməsinə yönəlib.

Məlumat üçün bildirək ki, ölkədə 1,3 milyon pensiyaçı var. Onlardan 58,3 faizi yaşa görə, 30,1 faizi əlilliyə görə, 11,6 faizi ailə başçısını itirməyə görə pensiya alır. Ötən il əmək pensiyalarının orta aylıq məbləğində 6,8 faiz, o cümlədən yaşa görə əmək pensiyalarının məbləğində 7,3 faiz artım qeydə alınıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub

İDARƏETMƏ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏMNUNLUĞUN TƏMİN EDİLMƏSİNƏ YÖNƏLİB

Azərbaycan iqtisadiyyatının inkişafının müasir mərhələsini şərtləndirən mühüm amillərdən biri idarəetmə mexanizminin maksimum sadələşdirilməsidir. Belə olan halda azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafına geniş üfüqlər açılır. İdarəetmə mexanizminin təkmilləşdirilməsi, yaxud sadələşdirilməsi dedikdə iki məsələ önə çıxır: prosedurların zaman və keyfiyyət kriteriyası. İki amil nəzərə alınarsa, o halda idarəçiliyin optimal şəkildə təşkil edildiyini söyləmək olar. Hər bir ölkənin idarəçilik sistemi özünəməxsus spesifik xüsusiyyətlərə malikdir. İnkişaf etmiş ölkələrin təcrübəsi örnək ola bilər. Lakin hər hansı ölkənin təcrübəsini olduğu kimi gətirib tətbiq etmək olmaz. Hər bir ölkənin idarəçilik sistemində milli, etnik, təbii-coğrafi şərait və digər amillər mütləq nəzərə alınmalıdır.

Son bir neçə il ərzində struktur islahatları sahəsində Azərbaycanda xeyli iş görülüb. Bəzi nazirlik, komitə və dövlət şirkətlərinin ləğvi, rekonstruksiyası, həmçinin bir çox xidmət növlərinin ASAN xidmətə ötürülməsi, müasir standartlara uyğun yeni qurumların yaradılması həyata keçirilib.

İdarəetmə sahəsində struktur islahatları 2018-ci ildə də davam etdirilib. Keçən il ərzində dövlət başçısının ölkə iqtisadiyyatı üçün vacib əhəmiyyət daşıyan bir sıra sərəncamları imzalanıb. Belə ki, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edilərək, iki dövlət agentliyinin yaradılması, idxal-ixrac əməliyyatlarına nəzarət səviyyəsinin təkmilləşdirilməsi, həmçinin Mədəniyyət və Turizm Nazirliyinin ləğv olunaraq yerində iki çevik dövlət qurumunun – Mədəniyyət Nazirliyinin və Turizm Agentliyinin təsis edilməsi bu sırada mühüm əhəmiyyət kəsb edən tədbirlərdir.

Bir sıra idxal-ixrac əməliyyatlarına Dövlət Gömrük Komitəsinin Vergilər Nazirliyi ilə birgə nəzarət edilməsi barədə verilən qərar ölkəmizdə aparılan islahatların tərkib hissəsi kimi böyük önəm daşıyır. Bu islahatların nə qədər vacib və həyati olması elə 2019-cu ilin ilk ayından hiss olunmağa başlayıb.

Cari ilin yanvar ayının 1-də cənab Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan geniş iclasda çıxışı zamanı o, bu islahatlara dövlətin nə qədər ciddi önəm verdiyini, köhnəlmiş iqtisadi strukturun yeni, çevik və səmərəli strukturla əvəz olunmasının vacibliyini vurğulayaraq demişdir: "Harada ki, mümkündür biz maksimum dərəcədə istifadə edək ki, işlər daha da yaxşı getsin. Ona görə də kadr islahatı bu məqsədi daşıyır. İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır – daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib. İndi dünyada əks proses gedir – idarəetmə daha çevik, daha yığcam, daha da məqsədyönlü və az işçi ilə böyük iş görmək üçün. Amma

bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatları, kadr islahatları aparılmalıdır. Hər bir sahədə o sahəyə rəhbərlik edən şəxslər mütləq maksimum səmərə ilə işləməlidirlər".

Dövlət başçısının bu açıqlamasından cəmi üç gün sonra imzaladığı fərman və sərəncamlar bu tələbin nə qədər vacib və təxirəsalınmaz olduğunu sübuta yetirdi. Öncə, prezident "Azərsursat" ASC-nin yaradılması haqqında sərəncam imzaladı ki, ölkədə müdafiə sənayesinin inkişafının dayanıqlığını təmin etmək üçün bu, çox zəruri addım hesab olunmalıdır. Yalnız bu yolla Azərbaycanın regionda silah-sursat istehsal edən əsas sənaye mərkəzlərindən birinə çevrilməsini təmin etmək olar – belə çevik, yığcam qurum yaratmaqla.

Azərbaycan bu gün nəinki Cənubi Qafqazın, eyni zamanda, regionun ən nüfuzlu ölkələrindən birinə çevrilib. Bununla yanaşı, bizim Dağlıq Qarabağ kimi həll olunmamış problemimiz var. Torpaqlarımızı işğaldan azad etmək üçün güclü ordu və silah-sursat lazımdır. Ölkə daxilində müasir tipli silah istehsalı düşmən üzərində qələbəni şərtləndirən mühüm amillərdən biridir.

Dövlət başçısının Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı imzaladığı başqa bir sərəncamla Prezident Yanında Elmin İnkişafı Fondunun və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin özünümaliyyələşdirmə əsasında yenidən təşkil edilməsi, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin, Prezident Yanında Dövlət Sirrinin Mühafizəsi üzrə idarələrarası komissiyanın katibliyinin, Narkomanlığa və Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə daimi fəaliyyət göstərən işçi qrupunun, əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət komissiyasının işçi qrupunun, habelə Azərbaycan Respublikası Tarif Şurasının katibliyinin ləğv edilməsi və onların fəaliyyətinin ictimai əsaslarla yenidən təşkil olunması təsdiqlənmişdir.

"Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanla isə Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Komitəsinin, Dövlət Baytarlıq Xidmətinin, Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin və Baş Dövlət Texniki Nəzarət Xidmətinin əsasında Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi yaradılmışdır. Yeni agentlik baytarlıq və fitosanitar xidmətlərin təşkilini və idarə edilməsini, keyfiyyətə nəzarəti həyata keçirəcək, bu sahədə dövlət aqrar inkişaf mərkəzlərinin fəaliyyətini əlaqələndirəcək, kənd təsərrüfatı texnikasının qeydiyyatını, nəzarət fəaliyyətini və bu sahədə dövlət xidmətlərini Dövlət Aqrar İnkişaf Mərkəzləri vasitəsilə təşkil edəcək, aqrokimya, toxum və bioloji laboratoriyalar, sort-sınaq məntəqələri və toxum sertifikatlaşma mərkəzlərində xidmətlərin təşkilinə və göstərilməsinə nəzarəti həyata keçirəcəkdir. İdarəetmənin çevik, yığcam və funksional təşkili azad sahibkarlığın və liberal iqtisadiyyatın inkişafına, xidmət mexanizminin rahatlığına və operativliyinə, təmasların minimuma endirilməsinə gətirib çıxaracaq.

Ticarətin asanlaşdırılması, eləcə də gömrük risklərinin idarə olunması sahəsində mühüm işlər görülüb. Ticarət əməliyyatlarının asanlaşdırılması ixrac potensialının artmasına, rəqabət qabiliyyətinin güclənməsinə və sonucda ölkə iqtisadiyyatının möhkəmlənməsinə geniş imkanlar və yollar açır. Son illər gömrük orqanlarının fəaliyyətində informasiya texnologiyalarının tətbiqi bu sahədə işin təşkilini daha çevik etmiş, həmçinin gömrük prosedurlarının sürətləndirilməsi xarici ticarət iştirakçılarının sayını artırmışdır. "Xarici ticarət iştirakçılarının "yaşıl dəhliz" buraxılış sistemindən istifadə hüququ əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi, bərpası Qaydalarının təsdiq edilməsi haqqında" cənab prezidentin 2018-ci il 21 dekabr tarixli fərmanı gömrük orqanlarının fəaliyyətində dönüş yaratmışdır. Bu həm də respublikamızda sahibkarlığın inkişafını, xüsusən qeyri-neft məhsullarının, o cümlədən kənd təsərrüfatı və tez xarab olan digər məhsulların ixracını gücləndirir. Bir məqamı da xüsusi olaraq vurğulamaq lazımdır ki, yeni texnoloji prosedurların tətbiqi biznes mühitində şəffaflığın təmin edilməsində, gömrük-biznes münasibətlərində "könüllü riayət" prinsipinin formalaş¬masında mühüm əhəmiyyət kəsb edir. Aparılan işlər, görülən tədbirlər məmur-vətəndaş təmaslarını minimuma endirib, korrupsiya ilə mübarizə mexanizmini gücləndirib.

Hazırda 14 elektron gömrük xidməti "elektron hökumət" portalının sahibkarlıq subyektlərinin istifadəsinə verilməsi görülən işlərin əyani göstəricisidir. Gömrük orqanlarının qarşısına qoyulan məqsədlərdən biri yeni innovativ layihələrin həyata keçirilməsi ilə vətəndaş məmnunluğunun təmin edilməsinə, ticarət dövriyyəsinin artmasına nail olmaqdan ibarətdir. Bununla yanaşı, Ümumi Tranzit Konsepsiyasına əsaslanan tranzit sisteminin inkişaf etdirilməsi qarşıda duran əsas hədəflərdəndir. Yaxın illərdə görülən tədbirlərin real nəticələrini görəcəyik.

Zülfü İLYASOV,
«İqtisadiyyat» qəzetinin
bölgə müxbiri

Sumqayıtda ÜDM istehsalı 35 faiz artıb, 7 min yeni iş yeri yaradılıb

Sumqayıtda ümumi daxili məhsul (ÜDM) istehsalı 35 faiz artıb. Trend-in məlumatına görə, bu barədə Sumqayıtda 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında bildirilib.

Qeyd olunub ki, 2018-ci ildə ümumi daxili məhsul istehsalı 2017-ci illə müqayisədə 35 faiz və ya 520 milyon manat artaraq 2 milyard manatdan çox olub. Sənaye müəssisələrində 1 milyard 300 milyon manatlıq məhsul istehsal edilib ki, bu da əvvəlki dövrlə müqayisədə 20 faiz artım deməkdir. İl ərzində hamısı daimi olmaqla 7000 yeni iş yeri yaradılıb, muzdla işləyən işçilərin orta aylıq əməkhaqqı 500 manat həddini ötüb.

Ötən ilin iyul ayında dövlət başçısı ölkənin ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polimer" MMC-nin Polipropilen istehsalı zavodunun açılışında iştirak edib. Kanada və Avstriya texnologiyası əsasında ildə 180,0 min ton məhsul istehsalı edəcək zavodda 500 nəfər işlə təmin edilib.

Prezident İlham Əliyev Sumqayıta noyabrda növbəti səfəri zamanı Kimya Sənaye Parkında İsveçrə və Türkiyə texnologiyaları əsasında 3,5 milyon dollar dəyərində 100 faizli xarici investisiya hesabına inşa edilmiş, ilkin mərhələdə 40 min ton tikinti qatqıları istehsal edəcək İnşaat kimyəviləri zavodunun, İtaliya texnologiyası əsasında ildə 50 min ton ferrosilisium və 72 min ton ferrosilikomanqan istehsal ediləcək, investisiya dəyəri 51 milyon dollar olan Əlvan metallar və ferroərintilər zavodunun və Böyük Britaniya, Almaniya, İtaliya texnologiyaları əsasında qurulan, ildə 11 milyard ədəd siqaret istehsal edəcək "Tabaterra" tütün məmulatları fabrikinin açılışlarında iştirak edib. Bu müəssisələrdə 500 yeni iş yeri yaradılıb.

Həmçinin, qeyd olunub ki, Sumqayıt Kimya Sənaye Parkı ərazisində inşa olunmuş "SOCAR Karbamid" zavodunun bu il yanvarın 16-da ölkə rəhbərinin iştirakı ilə açılışı olub. Zavodda 500 nəfər daimi işlə təmin ediləcək. Bu, müstəqillik tarixində Sumqayıtda ən böyük layihədir.

Sumqayıt Kimya Sənaye Parkında mövcud 18 rezidenti üzrə layihələrin investisiya dəyəri 3,5 milyard ABŞ dolları təşkil edir. Bunlardan 3 milyard dolları artıq layihələrə yatırılıb. Fəaliyyətdə olan müəssisələrin sayı 11-ə çatıb. İstehsalat və tikinti-quraşdırma işlərində 3 mindən çox işçi çalışır.

Son 5 ildə şəhərdə ÜDM istehsalı 2,6, sənaye məhsulu istehsalı 2,9, investisiya qoyuluşu 3,5 dəfə artıb, 32 819 yeni iş yeri yaradılıb. 2955 yeni istehsal sahəsi fəaliyyətə başlayıb.

İqtisadi göstəricilərin artması nəticəsində yerli büdcə gəlirlərinin proqnozu 112,3 faiz, xərc isə 100 faiz icra olunub.

Azərbaycan şərabları Belçika, Çin və Qazaxıstana ixrac ediləcək

Azərbaycan Sənaye Korporasiyasından bildirilib ki, Azərbaycanın şərab istehsalçısı "ASK Şəki Şərab" "Bouquet Sheki" və "Askona" adlı brendlərini təqdim edəcək. "Bouquet Sheki" və "Askona" brendləri adı altında Azərbaycanda yığılmış "Rkatsiteli", "Saperavi", "Mədrəsə", "Muskat", "Şardone" və "Merlo" kimi üzüm sortlarından şərablar istehsal olunacaq. Yüksək keyfiyyətli bu şərablar tamamilə Azərbaycan istehsalıdır və Avropa texnologiyalarına uyğun hazırlanıb. Yaxın günlərdə yeni şərablar ölkənin bütün iri ticarət obyektlərində təqdim ediləcək.

Bununla yanaşı, zavod Belçika, Çin və Qazaxıstana şərab ixracını təşkil etməyi planlaşdırır. İstehsal olunan şərablardan nümunələr Belçika, Çin, Qazaxıstana göndərilib və məhsullar yüksək qiymət alıb. Bu ölkələrdən olan şirkətlərlə müqavilələrin bağlanması da nəzərdə tutulur.

Qeyd edək ki, 2018-ci ildə "ASK Şəki Şərab" zavodu 724,9 ton üzüm qəbul edib və 500 min litr şərab məhsulu hazırlayıb. 2011-ci ildə yaradılan "ASK Şəki Şərab" şirkəti Azərbaycan Sənaye Korporasiyasının törəmə müəssisəsidir.

Azərbaycandan Özbəkistana ticarət missiyasının təşkili planlaşdırılır

Fevralın 4-5-də Azərbaycan nümayəndə heyəti Özbəkistanda səfərdə olub. Nümayəndə heyətində iqtisadiyyat və kənd təsərrüfatı nazirləri, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, "Azərbaycan Dəmir Yolları", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi", "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-lərin rəhbər şəxsləri və sahibkarlar təmsil edilib.

Səfər çərçivəsində hər iki ölkənin rəsmilərinin və sahibkarların iştirakı ilə dəyirmi masa keçirilib, Azərbaycan-Özbəkistan iqtisadi əlaqələrinin genişləndirilməsi istiqamətləri müzakirə olunub.

İqtisadiyyat naziri Şahin Mustafayev iki ölkənin iqtisadi-ticarət əməkdaşlığının dərinləşməsi üçün böyük potensialın olduğunu vurğulayaraq, energetika, sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət, turizm, mədəniyyət, İKT, innovasiyalar və digər sahələrdə əlaqələrin inkişaf perspektivlərini diqqətə çatdırıb. Bildirib ki, ölkələrimiz arasında birgə tədbirlər, biznes forumlar, sərgilər təşkil edilir, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir: "Azərbaycanda ticarət, sənaye, nəqliyyat, xidmət və sair sahələrdə Özbəkistan kapitallı 30-dək şirkət fəaliyyət göstərir. 2018-ci ildə ticarət dövriyyəsi 46,5 faiz artıb. Bununla belə, ticarət dövriyyəsinin artırılması üçün potensial böyükdür".

Azərbaycan iqtisadiyyatı barədə məlumat verən Ş.Mustafayev qeyd edib ki, son 15 ildə ümumi daxili məhsul 3,3 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, ticarət dövriyyəsi 3,5 dəfə, qeyri-neft ixracı 4,2 dəfə artıb, ölkə iqtisadiyyatına 250 milyard ABŞ dolları investisiya qoyulub.

İqtisadiyyat naziri Özbəkistanlı iş adamlarını Azərbaycandakı əlverişli işgüzar şəraitdən yararlanmağa, sənaye parklarında və məhəllələrində birgə müəssisələrin təşkilinə dəvət edib.

Dəyirmi masada Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov, Özbəkistanın kənd təsərrüfatı naziri Jamşid Xocayev, investisiya və xarici ticarət naziri Sardor Umurzakov çıxış edərək iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, qarşılıqlı investisiya qoyuluşu, kənd təsərrüfatı sahəsində təcrübə, bu sahədə tətbiq olunan qabaqcıl texnologiyalar və yeniliklər, pambıqçılıq, ipəkçilik və digər sahələrdə təcrübə mübadiləsinə, əməkdaşlığa dair fikirlərini bölüşüblər.

Görüşdə investisiya, ticarət, nəqliyyat-tranzit, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq imkanlarından daha geniş və səmərəli istifadə edilməsi, tranzit daşımaların artırılması üçün əməkdaşlığın dərinləşdirilməsi istiqamətində müzakirələr aparılıb.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti "Bakan Tex" tekstil fabriki, "Artel" elektrik məişət texnikası, "Uzbekipaksanoat" ipək, "Uzaqrotexsanoatholdinq" kənd təsərrüfatı texnikası istehsalı müəssisələrinin fəaliyyəti ilə tanış olub.

Azərbaycan Gürcüstandan şərab idxalını 2 dəfə artırıb

Bu ilin yanvar ayında Azərbaycan Gürcüstandan 5 790 şüşə şərab idxal edib.

Bu barədə qonşu ölkənin Milli Şərab Agentliyi məlumat yayıb. Məlumata görə, bu, ötən ilin yanvar ayı ilə müqayisədə 2 dəfə çoxdur.

Qeyd edək ki, ötən ay Gürcüstan 24 ölkəyə 6,25 mln. şüşə şərab ixrac edib ki, bu da 1 il əvvələ nisbətən 22% çoxdur.

Hesabat dövründə qonşu ölkənin şərab ixracından gəliri isə 33% artaraq 15,2 mln. ABŞ dollarına çatıb. Yanvarda gürcü şərabını ən çox idxal edən ölkələr Rusiya (4 602 218 şüşə), Ukrayna (553 164 şüşə), Çin (281 229 şüşə), Polşa (268 724 şüşə) və Qazaxıstan (156 120 şüşə) olub.

Hacıqabulda yeni avtomobil zavodunun təməli qoyulur

Fevralın 9-da Hacıqabul Sənaye Məhəlləsində kommersiya və xüsusi təyinatlı avtomobillərin istehsalı zavodunun təməli qoyulacaqdır. Mərasimdə Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri Maksim Oreşkin də iştirak edəcəkdir.

Layihəni Azərbaycanın "Azərmaş" şirkəti Rusiyanın "Qaz Qrup" şirkəti ilə birgə həyata keçirir. Ötən ilin aprel ayında Rusiyanın "Qorki Avtomobil Zavodu" (QAZ) ASC ilə "Azərmaş" ASC arasında "QAZ" markalı avtomobillərin Azərbaycanda yığımına dair əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

"QAZ" məşhur "Qazel" markalı avtomobilləri istehsal edir.

Biznesə başlamaq üçün maliyyə xərcləri və sənədlərin sayı sıfıra enir

Vergilər Nazirliyində funksional idarəetmənin səmərəliliyinin artırılması, vergi sisteminin hədəflərinə xidmət edən dinamik struktura malik müasir inzibatçılığın qurulması məqsədilə həyata keçirilən islahatlar çərçivəsində qeydiyyat və uçot sisteminin daha da təkmilləşdirilməsinə xüsusi önəm verilir.

Vergilər Nazirliyinin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin baş direktoru Ələkbər Məmmədov qeyd edib ki, əsas məqsəd ilkin qeydiyyatla bağlı müraciət edən sahibkarların daha rahat fəaliyyətə başlamasını stimullaşdırmaq üçün çevik və keyfiyyətli iş mexanizmlərinin qurulmasıdır. Yenicə icrasına başlanılan "Hüquqi şəxslərin bir prosedurla onlayn qeydiyyatı" layihəsi də məhz buna xidmət edir.

Layihə biznesə başlama prosedurlarının sadələşdirilməsini, vaxta qənaət edilməsini, əlverişli biznes mühitinin formalaşdırılmasını və şəffaflığın təmin olunmasını, məmur-sahibkar ünsiyyətinin minimuma endirilməsini, vətəndaş məmnunluğunun artırılmasını nəzərdə tutur.

Yeni sistem əmək müqavilələri barədə məlumatın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sisteminə e-imza tələb olunmadan qeydiyyat zamanı elektron ötürülməsinə, dövlət qeydiyyatı şəhadətnaməsinin barkodla çap edilməsinə, qeydiyyat sənədlərinin (şəhadətnamə, nizamnamə və reyestrdən çıxarış) elektron dövriyyəsinə, yerli investisiyalı MMC-nin dövlət qeydiyyatının maksimum elektronlaşdırılmasına imkan verir.

"Hüquqi şəxslərin bir prosedurla onlayn qeydiyyatı" layihəsinin tətbiqi əvvəllər mövcud olmuş bir neçə prosedurun aradan qaldırılmasına şərait yaradır. Bundan sonra MMC-nin elektron qeydiyyatı məqsədilə "ASAN imza" sertifikatının əldə edilməsinə ehtiyac qalmır, həmin prosedura sərf olunan 1 günlük vaxt və 90 manat xərc ləğv edilir. Həmçinin, Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi vasitəsilə MMC-nin qeydiyyatı üçün ərizə ilə müraciət olunması tələbi və bunun üçün müəyyən edilmiş 2 günlük vaxt da aradan qaldırılır. Nəhayət, əvvəllər müəssisənin fəaliyyətə başlaması üçün işəgötürənin əmək müqaviləsi bildirişlərinin "Elektron hökumət" portalı üzərindən qeydiyyata alınması tələb edilirdi ki, bu da təxminən yarım gün vaxt aparırdı. Qeydiyyat sistemində tətbiq edilən yeni qaydalarla bu prosedur da ləğv edilib.

Azərbaycan məhsulları Berlində nümayiş edilir

Fevralın 6-da Almaniyanın paytaxtı Berlində öz işinə başlayan "Fruit Logistica 2019" beynəlxalq meyvə və tərəvəz sərgisində Azərbaycan məhsulları da nümayiş olunur.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, nazirliyin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə meyvə və tərəvəz istehsalı sahəsində fəaliyyət göstərən 14 Azərbaycan şirkəti öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində təqdim edir. "Fruit Logistica 2019" beynəlxalq meyvə və tərəvəz sərgisi fevralın 8-də başa çatacaq.

OPEC transformasiya oluna bilər

Səudiyyə Ərəbistanı və onun Fars körfəzi üzrə müttəfiqləri Rusiya başda olmaqla təşkilata üzv olmayan on ölkədən ibarət qrupun ittifaqının yaradılması ilə OPEC-i yenidən transformasiya etmək niyyətindədirlər. Bu planın məqsədi dünya neft bazarına nəzarəti ələ keçirməkdir.

Bu xəbəri "The Wall Street Journal" nəşrinə istinadla RBK saytı yayıb.

Xəbərdə qeyd olunur ki, Səudiyyə Ərəbistanı əvvəllər də Rusiyanın üzv olduğu tamamilə yeni təşkilat yaradılmasını təklif edib. Qəzetə məlumat verən mənbələr iddia edirlər ki, hələ 2018-ci ilin iyununda bu ölkənin vəliəhd şahzadəsi Məhəmməd bin Salman energetika naziri Xalid Əl-Fəlihin vasitəsilə yeni kartelin yaradılmasını təklif edib. OPEC ölkələri və Rusiyanın başçılıq etdiyi ölkələr qrupu neft kartelinin strukturunun dəyişdirilməsi məsələsini fevralın 18-də OPEC-in Vyanada keçiriləcək görüşündə müzakirə etməyi nəzərdə tuturlar. Yekun qərar isə aprel ayında qəbul ediləcək. OPEC mənbələri qəzetə bildiriblər ki, yaradılacaq ittifaq üç il müddətində fəaliyyət göstərəcək və icbari hüquqi qüvvəsi olmayacaq.

Neftin qiymətinin son iki ildə kəskin şəkildə aşağı düşməsi nəticəsində yaranan vəziyyətdən çıxış yolları axtarmaq üçün OPEC və on ölkədən ibarət qrup ilk dəfə 2016-cı ildə əməkdaşlığa başlayıblar. OPEC+ sazişinin iştirakçıları ötən ilin dekabrında 2019-cu il iyunun sonunadək gündəlik neft hasilatını 1,2 milyon barrel azaltmaq barədə qərar qəbul ediblər. Bu razılaşma aprel ayında dəyişdirilə bilər. Azərbaycan son OPEC+ sazişi çərçivəsində hasilatı gündəlik 2,5 faiz (20 min barrel) azaltmağı öhdəsinə götürüb.

Sığorta agentlərinin sığorta haqlarında ciddi endirimlər var

Sığorta bazarındakı mövcud rəqabət səviyyəsi sığorta agentlərinin sığorta haqlarında ciddi endirimlər etməsinə səbəb olmuşdur.

Sığorta mütəxəssisi Hikmət Allahverdi bildirib ki, ciddi nəzarət və cəzalandırma nəticəsində bu halların qarşısını asanlıqla almaq olar:

"Burada sığorta agentləri icraçılardır, hətta bu işi görən sığorta agenti olmayan (lisenziyasız) çoxları var. Bunlar haradan qaynaqlanır? - Sığorta şirkətlərinin agentlərə - satıcılara qanunla müəyyən edilmiş komission haqlardan artıq mükafatlar verməsindən. Ümumiyyətlə, bu mövzuda çox geniş danışmaq olar. Ümidverici hal odur ki, bu kimi endirimlər "icbari avtoməsuliyyət sığortası" üzrə satışlarda olur, digər sığorta növlərində geniş vüsət almayıb. Həm də ciddi nəzarət və cəzalandırma nəticəsində bu halların qarşısını asanlıqla almaq olar, yetər ki, buna istək olsun. Elektron sığorta satışları zamanla mütləq inkişaf edəcəkdir. Çünki bu zamanın tələbidir, bu bir dalğadır ki, qarşısını almaq mümkün olmayacaqdır".

Грузия и Азербайджан являются крупным мостом между Европой и Азией

Грузия и Азербайджан очень успешно сотрудничают в регионе. Совместно осуществляемые энергетические и транспортные проекты еще больше повышают авторитет и значимость наших стран. Сегодня мы можем решительно сказать, что Азербайджан и Грузия - это крупный мост между Европой и Азией.

Об этом сказал в интервью журналистам мэр Тбилиси, бывший министр энергетики Каха Каладзе. По словам мэра, сегодня в Тбилиси заложена основа еще одного транспортного проекта международного значения. Подписано соглашение по строительству нового порта в Поти. После завершения строительства порта наши успехи еще более возрастут.

К.Каладзе сказал: «В нашем регионе имеется такой большой терминал, как Бакинский международный морской торговый порт. После сдачи в эксплуатацию порта Поти и глубоководного порта Анакли будет создана широкая торговая морская сеть. Тем самым, мы станем значимыми, важными партнерами не только для Европы и Азии, но и для всего мира».

89% территории по маршруту TAP в Греции и Албании приведено в исходное состояние

В Греции и Албании приведено в исходное состояние почти 89 процентов территории по маршруту прокладки Трансадриатического трубопровода (TAP), предусматривающего транспортировку азербайджанского газа в Европу.

Как передает в четверг Trend, об этом говорится в сообщении, размещенном на странице консорциума TAP AG в Твиттер.

«Около 89 процентов территории по маршруту TAP в Греции и Албании (685 километров из 765 километров в общей сложности) приведено в исходное состояние», - говорится в сообщении.

Как отмечается, после восстановления, эти земельные участки возвращаются владельцам для возобновления сельскохозяйственной деятельности.

Отметим, что TAP стоимостью 4,5 миллиарда евро является частью проекта "Южный газовый коридор".

Первоначальная мощность TAP составит 10 миллиардов кубических метров в год с возможностью ее удвоения.

Азербайджан в центре внимания мировых производителей удобрений

В Баку 14-15 марта состоится конференция "Argus Минеральные удобрения 2019. Производство и логистика в Каспийско-Черноморском регионе", сообщает в пятницу Trend со ссылкой на Argus.

Среди тем обсуждения перспективы завода "SOCAR Карбамид" в Сумгайыте, выход Азербайджана на международный рынок удобрений, обзор рынков аммиака и карбамида в регионах Черного и Средиземного морей, премиальные направления экспортных поставок для производителей удобрений Каспийского региона, потребность в новых перевалочных

мощностях, сельскохозяйственная отрасль Азербайджана и другие.

Как отмечается, ввод в строй новых мощностей по производству минеральных удобрений в странах Каспийского региона и Центральной Азии, превосходящих по выпуску продуктов потребность внутренних рынков этих стран, увеличит объем предложения экспортных партий в портах Черного моря.

Запуск завода "SOCAR Карбамид" в Сумгайыте обеспечит потребности Азербайджана в карбамиде, а также позволит производителю претендовать на роль одного из ключевых поставщиков этого продукта в Турцию, Украину и страны Восточной Европы.

Конференция объединит производителей минеральных удобрений из Азербайджана, России, Казахстана, Узбекистана, Туркменистана, международные торговые компании и дистрибьюторов из Турции, Украины и стран Восточной Европы, компании транспортнологистической отрасли.

Центробанк Азербайджана снизил учетную ставку

Центральный банк Азербайджана (ЦБА) снизил учетную ставку с 9,75 до 9,25 процента.

Об этом сказал на пресс-конференции председатель Центрального банка Азербайджана Эльман Рустамов. Верхний предел процентного коридора снижен с 11,75 до 11,25 процента, нижний предел процентного коридора – с 7,75 до 7,25 процента.

Как отметил Рустамов, снижение учетной ставки и параметров процентного коридора обусловлено стабилизацией цен на нефть, низкой инфляцией и стабильной макроэкономической ситуацией.

Отметим, что предыдущее заседание ЦБА прошло в декабре прошлого года. Тогда монетарный регулятор решил оставить учетную ставку без изменений.

Всего же в течение 2018 года ЦБА четыре раза снижал учетную ставку: в феврале - с 15 до 13 процентов, в апреле - с 13 до 11 процентов, в июне - с 11 до десяти процентов, в октябре – десяти до 9,75 процента. В августе и декабре учетную ставку сохранили без изменений.

В Азербайджане подешевели драгоценные металлы

Цены на драгоценные металлы в Азербайджане в четверг снизились, сообщает Trend со ссылкой на данные Центрального банка.

Так, унция золота седьмого февраля подешевела по сравнению с предыдущим показателем на 18,3005 маната, составив 2215,4485 маната, серебра - на 0,2661, до 26,6084 маната, платины - на 22,8905 до 1367,99 маната, палладия - на 4,505, до 2338,4265 маната.

Банковские металлы - это золото, серебро, платина и металлы платиновой группы (палладий, иридий, рутений, родий, осмий), доведенные до наивысшей пробы (999,9). Банковские металлы продаются в слитках, монетах или порошках и имеют соответствующий сертификат качества.

Трамп представил кандидатуру на пост главы Всемирного банка

Президент США Дональд Трамп в среду выдвинул кандидатуру замминистра финансов по иностранным делам Дэвида Малпасса на пост нового главы Всемирного банка. Как передает Trend со ссылкой на Интерфакс, об этом сообщил телеканал ABC News.

По данным телеканала, многие в Вашингтоне скептически встретили номинацию Малпасса, отметив, что этот чиновник Минфина неоднократно выступал с острой критикой в адрес Всемирного банка и других международных институтов.

"Дэвид и Соединенные Штаты приветствуют возможность возглавлять подобные организации, выполнять поставленные этими организациями задачи и работать эффективно и результативно", - цитирует телеканал высказывания неназванного представителя администрации США.

Дэвид Малпасс - 62-летний республиканец во время предвыборной кампании Дональда Трампа в 2016 году был его старшим экономическим советником. С сентября 2017 года он занимает пост замминистра финансов США по иностранным делам.

Банки Уолл-стрит повысили прогноз цен на нефть

Банковские аналитики Уолл-стрит в январе несколько ухудшили прогнозы цен на нефть по итогам всего 2019 года относительно декабрьской оценки, свидетельствуют результаты ежемесячного опроса The Wall Street Journal.

При этом они повысили ожидания на первое полугодие из-за сохранения ограничений на добычу нефти странами ОПЕК+ и снижением поставок из Ирана и Венесуэлы.

Нефть североморской марки Brent в 2019 году будет в среднем стоить немногим более $67 за баррель вместо ожидавшихся в конце года чуть выше $69 за баррель, прогнозируют 11 представителей инвестиционных банков, участвовавших в опросе.

Для североамериканской WTI оценка снижена до примерно $60 за баррель с $63 за баррель.

За последние шесть недель нефть обеих марок отыграла почти половину падения, полученного за четвертый квартал прошлого года, когда цены упали примерно на 40% с четырехлетних максимумов в начале октября.

Экспорт нефти из Ирана сократился на 1,5 млн баррелей в сутки с примерно 2,5 млн б/с с момента введения американских санкций против этой страны в мае 2018 года.

Баланс на глобальном нефтяном рынке во втором полугодии, как полагают в Berenberg, будет зависеть, в частности, от того, продлят ли государства ОПЕК+ соглашение об ограничении добычи.

В 2020 году банковские аналитики Уолл-стрит прогнозируют среднюю цену Brent на уровне $68 за баррель и WTI - около $63 за баррель.

TİCARƏT ZALINDA İŞIQLANMA

Malların bəzədilməsi kompozisiyası və nümayiş etdirilən malların seçilməsi nə qədər uğurlu olsa da, işıq düzgün seçilmədikcə mağazanın interyerinin qurulmasında lazımi təəssürat yaratmayacaqdır. İşıqlandırma yalnız interyerin dekorativ tərtibatı vəzifəsini həll etmir, həm də malların satışında texnoloji prosesin zəruri şərtlərinin təmin edilməsini tələb edir və bununla yanaşı, mağazanın interyerinin arxitekturası ilə ahəngdar surətdə uzalaşmalıdır. Buna görə də dekoratora işıq texnikası sahəsində müəyyən məlumatlar, xüsusilə işıqlandırıcı cihazların xarakteristikası haqqında biliklər lazımdır. Ticarət zalının və mağaza daxili vitrinlərin işıqlandırılması problemlərinin həlli üçün yalnız estetik tələbləri yox, həm də xalis texniki tələbləri nəzərə ala bilən işıq texnikasını cəlb etmək tövsiyə olunur.

Mağazalarda, bir qayda olaraq, həm təbii, həm də süni işıqlandırmadan istifadə edilir. Əgər kifayət qədər geometrik işıq əmsalına, yəni pəncərənin döşəmənin sahəsinə olan nisbətinə riayət olunarsa, təbii işıqlanmadan istifadə edilə bilər.

Bu nisbət (işıq əmsalı) aşağıdakı düsturla müəyyən olunur:

$$Ə_i = S_{şs} : S_t$$

Burada: $Ə_i$ – mağazanın ticarət zalının işıqla təbii işıqlandırılması əmsalı;

$S_{şs}$ – şüşələnmiş səthin (pəncərənin) sahəsi;

S_t – ticarət zalının tavanının sahəsi.

Təbii işıqlandırma dərəcəsinin göstəricisi 0,125-dən az olmalı və ya 1:8 nisbətini təşkil etməlidir.

Ticarət şəbəkələrini işıqlandırmaq üçün közərtmə elektrik lampalarından və lüminessensiya işıq saçma lampalarından istifadə etməklə süni işıqlanma geniş tətbiq edilir. Lüminessensiya işıq saçma lampaları daha qənaətcildir, hər hansı bir çalarda işıq əldə etməyə imkan verir və buna görə də onların tətbiqi zamanı işıq süzgəclərinin zəruriliyi aradan qaldırılır.

Süni işıqlandırma müəyyən olunmuş normalara uyğun olaraq tətbiq olunmalıdır. Bu normalar çərçivəsində işıqlandırma səviyyəsinə ümumi, yerli və kombinələşmiş işıqlandırma sistemi ilə nail olunur. Ümumi işıqlandırma elə işıqlandırma sistemidir ki, bu zaman işıq axınları bütün ticarət şəbəkəsinin bərabər işıqlanmasını təmin edir. Onu elə hallarda tətbiq etmək məqsədəuyğundur ki, bu zaman malların spesifik xassələri böyük işıqlanma tələb etmir, iş yerləri və malların nümayiş olunduğu yerlər bir-birinə yaxın yerləşir.

Yerli işıqlandırma zamanı çıraqdan yayılan bütün işıq axını müəyyən sahə üçün yönəldilir. Bu sistemdən vitrinlərin, ticarət zalında yerləşən maili və ya şaquli stendlərin işıqlandırılması üçün istifadə olunur.

Bütün mağazanın kifayət qədər işıqlandırılmasında işıqlandırma sistemi daha çox tətbiq edilir.

Xatırlatmaq lazımdır ki, ticarət şəbəkələrinə (binalarına) ticarət zalları, əhaliyə əlavə xidmət göstərən şöbələr, nümayiş zalları daxildir. Əksəriyyət mağazalarda işıqlandırmanın pilləli paylaşma sistemindən istifadə olunur. Əgər ticarət zalının orta üfüqi işıqlandırılması vahid kimi qəbul edilsə, onda mağazaya girişin, piştaxtalarda, zərflərdə əmtəə ekspozisiyasının işıqlandırılması 1,5-2 vahidində, malların

reklam ekspozisiyasının işıqlandırılması 2-3 vahidində təşkil edilməlidir. Mağazadaxili işıqlanmanın bu sistemi qənaətcildir və alıcıların diqqətini satışda olan mallara cəmləşdirərək, onların hərəkəti zamanı işıq hissiyatının müəyyən ritmini yaradır.

Ticarət binalarının rasional işıqlandırılması məhz mağazanın güclü reklamlaşdırılmaya ehtiyac duyan mallarına alıcıların diqqətini cəlb etməyə kömək edir. Ayrı-ayrı sahələrin, ticarət zalı zonasının işıqlandırma rənginin vaxtaşırı dəyişməsi həmçinin alıcıların diqqətini cəlb edir və bununla da mağazanın kommersiya uğuruna yardım göstərir.

İşıq axınını formalaşdırmaqdan və onun vitrinlərinin və ticarət binalarının işıqlandırılmasının ümumi ideyasına uyğun bölüşdürülməsindən ötrü dekoratar müxtəlif işıqlandırma cihazlarından istifadə edir. Ümumi işıqlandırma cihazlarını işıq axınının bölgüsü xarakterinə görə birbaşa, əks olunmuş və işıqsaçma çıraqlarına bölmək olar.

İşıqlandırma cihazlarının müxtəlif növləri mövcuddur. İşıqlandırma cihazlarının komplekt, az nəzərə çarpan, yaratdıqları işıq effektlərinin isə asanlıqla dəyişən olması vacibdir.

Ticarət reklamı obyektlərinin işıqlandırılmasının yekun sxeminin axtarışı zamanı cihazların yerini, onların hərəkət istiqamətini, bəzi hallarda isə əgər işıqlandırma cihazları buna imkan verirsə, onların yaratdığı işıq axınının xarakterini dəyişərək, bir neçə variantı sınaqdan keçirmək lazımdır. Lakin bununla belə, yanğına qarşı təhlükəsizlik tələblərinə riayət etmək vacibdir, çünki işıqlandırma cihazlarının həddindən artıq qızması yanğına səbəb ola bilər. Bundan əlavə, böyük gücdə işıq axınları malların rənginin qaçmasına (solmasına) və xarab olmasına gətirib çıxarar.

F.M.Qarayev,
BDU-nun dosenti

Bakıda "IADC Drilling Caspian" sərgi-konfransı keçiriləcək

Beynəlxalq Qazma Podratçıları Assosiasiyası (International Association of Drilling Contractors-IADC) tərəfindən fevralın 20-21-də Bakıda "IADC Drilling Caspian" sərgi və konfransı keçiriləcək.

Tədbirin sponsorları SOCAR, BP, "Maersk Drilling", SOCAR AQŞ, "Derrick" və "KCA Deutag" şirkətləridir.

Qeyd edək ki, baş ofisi ABŞ-ın Hyuston şəhərində yerləşən IADC neft və qaz kəşfiyyatı, quyu tikintisi, istismar, neft-mədən avadanlığının istehsalı və bu kimi müvafiq xidmətlər ilə məşğul olan 1600 üzv müəssisəni ətrafında birləşdirən qeyri-kommersiya təşkilatıdır.

IADC 70 ilə yaxın bir müddətdə təhlükəsiz və səmərəli qazmanı təmin edən standartların tətbiqində tərəfdaşlara mütəmadi olaraq öz dəstəyini göstərməkdədir.

Dünya Meteorologiya Təşkilatı: son dörd il dünyada ən isti illər olub



Dünya Meteorologiya Təşkilatının məlumatına görə, son dörd il (2015-2018) dünyada meteoroloji qeydiyyatların aparıldığı 170 il ərzində ən isti dövr olub.

AZƏRTAC xəbər verir ki, mərkəzi qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşən beynəlxalq təşkilat cari ildə də proqnozların ürəkaçan olmayacağı qənaətindədir. Bununla da təşkilat qlobal istiləşmə ilə bağlı xəbərdarlıqların nə dərəcədə ciddi olduğuna diqqət çəkib.

Təşkilatın apardığı analizdə müəyyən edilib ki, 2018-ci ildə qlobal orta temperatur sənayeləşmə mərhələsindən (1850-1900-cü illər) əvvəlki dövrlə müqayisədə 1 dərəcə, 1981-2010-cu illərin orta göstəricisindən isə 0,38 dərəcə yuxarı olub. 2015-2017-ci illərdə isə orta göstərici daha yüksəyə qalxaraq, sənayeləşmədən əvvəlki dövrdən 1,1 dərəcə yuxarı olub. Meteoroloqlar „El Ninyo" qasırğasının istiləşmədə xüsusi effektini də diqqətdən qaçırmayıblar.

Dünya Meteorologiya Təşkilatının baş katibi Petteri Taalas uzunmüddətli trendi şərh edərkən bildirib ki, meteoroloji qeydlər aparılandan bəri 20 ən isti il son 22 ilin payına düşür. Son dörd ildəki istiləşmə həm quruda, həm də okeanlarda özünü büruzə verib və atmosferdə zərərli qazların konsentrasiyası ilə müşayiət olunub. P.Taalas qeyd edib ki, yüksələn ortalama temperatur və istixana qazlarının rekord konsentrasiyası 2018-ci ildə dünyanın bir çox regionlarında ekstremal hava şəraitinə gətirib çıxarıb, nəticədə milyonlarla insana, ölkə iqtisadiyyatı və ekosistemə ağır zərbə dəyib.

2019-cu il də mavi planet üçün rekord temperaturlarla başlayıb. Yanvar ayı Avstraliyada materikin meteoroloji tarixində ən isti ay kimi tarixə düşüb, Şimali Amerikada isə əksinə - şiddətli soyuqlar qeydə alınıb. Arktikada buzların əriməsinin iki dəfə daha sürətlə baş verməsi isə dünyanın müxtəlif regionlarında hava dəyişikliyi və iqlim problemlərinə gətirib çıxarır.

P.Taalas qeyd edib ki, qlobal istiləşmə tendensiyası iqlim dəyişikliklikliyinə qarşı uzunmüddətli proqramların hazırlanması və addımların atılmasını tələb edir.

"Microsoft" və "Gilan Holding" arasında mühüm saziş imzalanıb

"Microsoft" korporasiyası kibertəhlükəsizliyin yaxşılaşdırılması üzrə Azərbaycan hökumətinin strategiyasının dəstəklənməsi çərçivəsində "Gilan Holding" ilə yeni korporativ müqavilə ("Enterprise Agreement") imzalayıb və bununla da rəqəmsal transformasiya sahəsində sözügedən şirkətlər qrupunun strateji tərəfdaşına çevrilib. Azərbaycanın ən iri holdinqi sayılan "Gilan" hazırda "Microsoft"un ən son texnologiyalarından istifadə edərək, süni intellekt və sürətli idarəetmə sürətinin optimallaşdırılması sahələrində uğur qazanmağa imkan verir.

Sazişin əsas məqsədi informasiya texnologiyalarının tətbiqi və pirat proqram təminatının aradan qaldırılması istiqamətində Azərbaycan hökumətinin siyasətini dəstəkləmək, yeni nəsil informasiya texnologiyalarının biznesə daxil edilməsi prosesində texnologiya nəhəngindən dəstək almaqdır.

"Microsoft Azerbaijan" şirkətinin baş direktoru Sərxan Həşimov bildirib: "Biz "Microsoft" şirkəti olaraq ölkənin ən böyük özəl strukturlardan biri olan "Gilan Holding"lə əməkdaşlığa başlamaqdan məmnunuq. Üzərimizə götürdüyümüz öhdəlik, eyni zamanda, "Azure" vasitəsilə süni intellekt xidmətlərini təmin etməklə və rəqəmsal transformasiya köməyi ilə beynəlxalq rəqabət qabiliyyətini artırmaqla holdingin müxtəlif biznes portfellərinin idarə olunmasını asanlaşdıracaq. Əməkdaşlığımız məhsuldarlığın və effektiv idarəetmənin inkişafına gətirib çıxaran informasiya texnologiyalarına olan inam səviyyəsini artırmaq məqsədini daşıyır".

IDC-nin məlumatına görə, son bir neçə il ərzində kibercinayətkarlığın səviyyəsi misli görünməmiş miqyasa çatıb və müxtəlif müəssisələrdə bir sıra İT-infrastruktura dəymiş ziyanın həcmi təxminən 400 milyard ABŞ dollarına bərabər olub. Kibercinayətkarlar qeyri-qanuni maliyyə mənfəəti üçün zərərli proqramlar yaradır və məlumatların oğurlanması, casusluq və ya digər cinayət əməllərini həyata keçirirlər. Bu səbəbdən saxta və ya lisenziyasız proqramları istifadə edən təşkilatlar riskə məruz qalır.

MDB ölkələri hazırda rəqəmsal transformasiya dövrünü yaşayırlar. Bu prosesin çətin olmasına baxmayaraq, ölkə iqtisadiyyatı üçün çox vacibdir. Azərbaycanda İKT iqtisadiyyatın qeyri-neft sektorunda prioritet sahələrindən biridir. "Gilan Holding" Azərbaycan iqtisadiyyatının əsas iştirakçılarından biri olaraq, informasiya texnologiyalarını da rəqəmsal transformasiya prosesinin prioritetlərindən biri hesab edir.

"Gilan Holding"in İnformasiya texnologiyaları üzrə direktoru Nizami Mansirov qeyd edib: "Microsoft"la sözügedən sənədin imzalanması "Gilan Holding"ə texnologiya inkişafında yeni səviyyəyə keçid prosesində yüksək nailiyyətlər əldə etməyə imkan verəcək".

"Microsoft" ilə müqavilənin ratifikasiyası "Gilan Holding"in rəqəmsal transformasiyaya doğru ilk qlobal addımıdır. "Azure"/"Cloud" məhsul və öhdəliklərini nəzərə alan bu saziş özündə informasiya texnologiyaları sahəsində dövlət siyasətini və pirat proqramından imtinanı əks etdirir.

"Microsoft"un texnologiyalarına biznes proseslərin şəffaflığı, proqnozlu analitika və orijinal proqram təminatından istifadə edərək informasiya sistemlərinin etibarlılığına, o cümlədən lazımsız İT-risklərdən, kiberhücumlardan və şəxsi məlumatların oğurlanmasından müdafiəyə zəmanət verən texniki dəstək daxildir.

Hazırda "Gilan Holding" hibrid və bulud həlləri əsasında "Azure"dan istifadə etməklə idarəetmə üçün süni intellekt xidmətlərini təqdim edir. Bundan başqa, sözügedən yeni sistemlər kadrların inkişafına kömək edəcək və yeni texnologiyaların faydalarını maksimum dərəcədə artıracaq.

Alimlər süni dəri hazırlayıblar

Konnektikut və Toronto universitetlərinin tədqiqatçıları tərəfindən hazırlanmış süni dəri güclü maqnit sahəsi və təzyiq dəyişikliklərinə reaksiya verən çoxfunksiyalı sensorlar sayəsində onun sahibini xüsusi imkanlarla təmin edə bilər.

"Techcult.ru" saytının verdiyi məlumata görə, elektron dərinin əsasını maqnit sahəsinə reaksiya verən ferromaqnit mayesi (ferroflyuid) ilə doldurulmuş elastik silikon borudan ibarət "ferroflyuid əsasında multimodal triboelektrik nanogenerator" (FO-TENG)



təşkil edir. Silikon boru elektrik siqnallarını keçirən mis məftillərdən ibarət sarğıya malikdir.

Mütəxəssislərdən biri "Science Daily" nəşrinə deyib ki, yeni süni dəri "su keçirmir və dartılıb-uzadıla bilir ki, bu da ona öz formasını illərlə saxlamağa imkan verir.

Tədqiqatçılar ümid edirlər ki, müvafiq icazə alındıqdan sonra təhlükəli materialların utilizasiyası vaxtı, avtomatlaşdırılmış axtarış-xilasetmə missiyalarında, həmçinin güclü yanıq xəsarəti almış şəxslər üçün protezlərin hazırlanması vaxtı süni dəridən istifadə etmək mümkün olacaq.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500